

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Azərbaycan dövlətinin xilaskarı və qurucusu**



8

# BÖYÜK QAYIDIŞ: 2024-cü il Şərqi Zəngəzur və Qarabağın tarixində



2

SƏS

№ 227 (7152)

10 dekabr 2024-cü il.
Qiymәti 60 qəpik

# Suriyadakı hadisələrin doğurduğu ƏKS-SƏDA VƏ REZONANS



4

**Medianın İnkişafı Agentliyi açıqlama yayıb**




7

Çipsilər insanda niyə bağlılıq yaradır?



5

**Suyu süzülən BAKI...**



7

## İpoteka ilə ev almaq istəyənlərə ŞAD XƏBƏR



16

## 2025-ci ildə sosial müdafiəyə ayrılan bütün vəsaitlərdə artımlar ediləcək



5

# BÖYÜK QAYIDIŞ: 2024-cü il Şərqi Zəngəzur və Qarabağın tarixində





***Yola salacağımız il - 2024-cü il Şərqi Zəngəzur və Qarabağa Şuşanın tarixi yaddaşında necə qaldı? Xalqımızın Ümummili Lideri Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyevin yenilməz qətiyyəti, dəmir iradəsi, yeritdiyi güclü daxili və xarici siyasəti, qəbul etdiyi qərarlar, atdığı addımlar, sərgilədiyi diplomatik gedişlər, qazandığımız qələbəni - Zəfərimizi şərtləndirən başlıca amillər oldu.***

Azərbaycan Prezidenti İlham Əliyev beynəlxalq tədbirlərdə Azərbaycanın haqq sözünü ifadə edərək, Birləşmiş Millətlər Təşkilatının Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasını nəzərdə tutan məlum qətnamələrinin tələbləri yerinə yetirilmədiyini dəfələrlə bildirmişdi. Münaqişənin sülh yolu ilə həll edilmədiyi halda, hərb yolu ilə torpaqlarımız işğaldan azad olunmalı idi. Erməni silahlı qüvvələri 27 sentyabr 2020-ci ildə yeni hərbi təxribatlara başlayanda cavab olaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın tam Qələbəsi ilə nəticələndi. Bu Qələbə xalqımızın üzərindən məğlub, torpaqları işğal altında qalan, qaçqın və köçkün sözünü götürdü. "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciəti zamanı səsləndirdiyi bu fikirlər və xalqımıza bu müjdənin verilməsi Azərbaycanın tarixinə açılan yeni səhifələrdən oldu. Artıq biz Qarabağa və Şərqi Zəngəzura qayıtmışıq. Daşlaşmış yaddaşda tariximiz var, keçmişimiz, mədəniyyətimiz var. Bu gün Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir. Reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, işğaldan azad olunan ərazilər yenidən dirçəlir və yeni bir inkişaf, abadlıq və quruculuq dövrünə qədəm qoyub. Dövlət başçımızın işğaldan azad olunan ərazilərimizə səfərləri çərçivəsində görülən işlər hər kəsin diqqətindədir.

*İlham Əliyev: "Dünya müharibələrinin tarixində müharibələrdən sonra bu sürətlə heç bir yerdə quruculuq-bərpa işləri aparılmayıb"*



## "BİZİM ƏSAS VƏZİFƏMİZ KEÇMİŞ KÖÇKÜNLƏRİ TEZLİKLƏ DƏDƏ-BABA TORPAQLARINA QAYTARMAQDIR"

Yola salacağımız 2024-cü il Böyük Qayıdış üçün uğurlu il oldu. Ölkə Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinin daha da vüsət almasına böyük təkan verir. Azərbaycan Respublikası öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoyub. Yaşıl enerji zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı layihələr həllini tapır. Məlumdur ki, birinci pilot layihə olan "Ağıllı kənd" layihəsi Zəngilanda icra edildi. 2022-ci ildə Ağalıya köç başladı. Bu gün Ağalı kəndi dünyanın ən müasir kəndlərindən birinə çevrilib. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Daha sonra isə digər ərzizlərimizə qayıdış oldu. Bir çox kəndlərdə artıq inşaat işlərinə başlanılıb. Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda çoxmərtəbəli evlərin tikintisinə də başlanıldı. Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydançasına çevrilmişdir. Ötən ilə 5 minə yaxın keçmiş köçkün öz doğma torpaqlarına qayıtmışdır. Bu il isə onların sayı sayı artmışdır.

Artıq ərazilərimizdə intensiv şəkildə bərpa və yenidənqurma işləri ardıcıl olaraq həyata keçirilir. "Dünya müharibələrinin tarixində müharibələrdən sonra bu sürətlə heç bir yerdə quruculuq-bərpa işləri aparılmayıb", - deyə çıxışlarının birində bildirən Cənab Prezident bu işlər haqqında Azərbaycan vətəndaşlarının müntəzəm olaraq məlumatlandırıldığını diqqətə çəkib: "Bizim əsas vəzifəmiz keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaqdır və biz buna nail olacağıq".

Bu gün planlı və sistemli şəkildə yeni layihələrin uğurla icrası Zəngilan, Füzüli, Laçın kimi işğaldan azad olunan ərazilərin əzəli sakinlərini qoynuna alıb. Görülən irimiqyaslı işlər bu əraziləri müasir bir şəhərə çevrilir. Əlbəttə ki, həyata keçirilən genişmiqyaslı layihələr deməyə əsas verir ki, işğaldan azad olunan bütün ərazilərimiz müasir tələblər çəçivəsində yenidən qurulur. Demək olar ki, işğaldan azad olunan ərazilərimizin hər bir məkanında qaynar həyat başlanıb, abadlıq-quruculuq işləri aparılır.

Laçın, Füzuli şəhərləri, Ağalı (Zəngilan), Talış (Tərtər), Zabux (Laçın) kəndləri yeni dövrünə qədəm qoyub. Azərbaycanın iqtisadi gücü işğaldan azad olunan ərazilərdə yeni həyatın başlanmasına imkan verir. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq sıfırdan yeni şəhər və kəndlər salır. Bildiyimiz kimi, qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilib. Bu prioritetlərə söykənən dövlət başçısının Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunmuş "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edildi. Bu Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınmışdır.

## BÖYÜK QAYIDIŞIN XOCALI SƏHİFƏSİ

Bu il daha əlamətdar hadisələrə şahidlik etdik. Böyük Qayıdışın Xocalı səhifəsi yazıldı. Böyük Qayıdış tarixində daha bir əlamətdar hadisəyə – yaddaşımızda daşlaşacaq bir qayıdışa Xocalı qayıdışına şahidlik etdik. Yüzlərlə insanın qanı tökülən bir şəhərə QAYIDIŞA. Birinci mərhələdə 20 ailə Xocalıya qayıtdı. Bu qayıdışın Müstəqillik Gününə təsadüf etməsi təsadüf etməsi heç də təsadüfi deyildi. "Keçən il Müstəqillik Günündə mən Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etmişdim. İki il bundan əvvəl Müstəqillik Günü ərəfəsində - mayın 27-də Ağalı sakinləri ilə görüşmüşdüm.

Ardı Səh. 3

# BÖYÜK QAYIDIŞ: 2024-cü il Şərqi Zəngəzur və Qarabağın tarixində

Əvvəli-Səh-2

Onlar da məhz o gündə köçmüşdülər. Bu gün isə xocalılılar qayıdırlar. Bu, gözəl tarixi hadisədir. Xocalı da gördüyünüz kimi, gözəlləşir, yenidən qurulur", - deyə Prezident bildirmişdir. 1992-ci ilin 26 fevral tarixində erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir. Xocalı soyqırımı ilə ermənilər Xocalının yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Xocalı bir gecənin içərisində yerlə-yeksan olundu. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi. Xocalı soyqırımının nəticələri çox dəhşətli idi. Bu kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi.

### XOCALININ QAPISI ÜZÜMÜZƏ AÇILDI

İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən, imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata uyğun olaraq Xocalı şəhəri Rusiya Sülhməramlı kontingentinin nəzarəti altında olub. 19 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatları nəticəsində azad olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. "Xocalıda, Xankəndidə, o vaxt hələ ki, azad edilməmiş digər şəhər və kəndlərimizdə separatçılar at oynadırdılar. Onlar hesab edirdilər ki, burada separatçılıqla əbədi məşğul olacaqlar. Halbuki bunun heç bir hüquqi, tarixi əsası yox idi. Xocalı qədim Azərbaycan torpağıdır. Mənfur düşmən soyqırımı törədəndən sonra burada qanunsuz məskunlaşma da aparmışdır. Bu da hərbi cinayət sayılır. Xocalının adını da dəyişdirməyə, bir hərbi cinayətkarın adına rəsmiləşdirməyə çalışırdılar. Ancaq hər şeyin vaxtı var və biz qayıtmışıq, həm Vətən müharibəsi, həm antiterror əməliyyatı xalqımızın gücünü, iradəsini, əsgər və zabitlərimizin qəhrəmanlığını bütün dünyaya sübut etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin!" – deyə Prezident bildirib.

Azərbaycan tarixi ədaləti bərpa edib və günahsız Xocalı qurbanlarının qisası döyüş meydanında alınıb. Artıq bu gün Xocalının qapısı üzümüzə açıqdır. Azərbaycan əzəli torpaqlarına sahibdir.

Artıq Xocalıda ədalətin təntənəsi yaşanılır, yeni bir dövrün başlanğıcı. Ərazi bütövlüyünü, suverenliyini təmin etmiş bir dövlətin müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş Zəfər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi tariximizə əbədi həkk olundu və əzəli yurd yerlərimizə sahib olduq. Xocalı yenidən qurulur. "Əvvəlkindən də daha gözəl şəhərdir və daha da gözəl olacaq. Bu gün sadəcə olaraq, birinci mərhələdir. Bu gün, əslində, Böyük Qayıdış proqramının Xocalı səhifəsi yazılır. Yaxın gələcəkdə digər xocalılılar da buraya qayıdacaqlar, əminəm ki, böyük həvəslə" – deyə Prezident qeyd edib: "Xocalılılar müxtəlif yerlərdə məskunlaşmışdılar və müstəqillik illərini Xocalıdan ayrı keçirməli oldular. Müstəqilliyin bərpası elan olunandan dörd ay sonra Ermənistan Xocalı soyqırımını törətdi, günahsız insanları qətlə yetirdi, insanlığa qarşı cinayət törətdi. Xocalılılar faktiki olaraq müstəqilliyin bütün illərini başqa-başqa yerlərdə keçirməli oldular, o cümlədən Ağcakənd kəndində. Bildiyiniz kimi, birinci köçkün qəsəbəsi məhz Ağcakənd qəsəbəsində xocalılılar üçün Ulu Öndərin iştirakı ilə salınmışdır".






Cənab Prezident müharibədən sonra azad olunmuş ərazilərə şəxsən səfər edir, həmin torpaqlardan qarşıda duran vəzifələrlə bağlı mesajlarını verir. Hər bir ərazidən qalib ordunun və dövlətin qalib SƏRKƏRDƏSİ kimi səsini ucaldır, mesajlarını verir, dünya bunu görür və eşidir.



Bildiyimiz kimi cari ilin fevralın 26-da Xocalı soyqırımı günü Prezident İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoymuşdu. Xocalı-Əsgəran avtomobil yolunun üzərində Heydər Əliyev Fondu tərəfindən yaradılacaq. Xocalı Soyqırımı Memorialı bəşəriyyətə qarşı yönəlmiş dəhşətli qətliam haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsində əhəmiyyətlidir. Cənab Prezident bildirib ki, Xocalı soyqırımı abidəsinin, Memorial Kompleksinin yaradılması ilə bağlı uzun illər məsələlər müzakirə edilirdi, hətta "Ana fəryadı" abidəsinin yanında yer də seçilmişdi, layihə də hazırlanmışdı: "Ancaq hər il mən son təsdiqimi vermirdim. Çünki ürəyimdə saxlayırdım ki, bu Memorial Kompleks Xocalıda yaradılmalıdır və belə də oldu. Həmin o layihəni biz gətirdik və fevralın 26-da Xocalıda xocalılılarla bərabər Xocalı Memorial Kompleksinin təməli qoyuldu və burada inşa ediləcək. Bütün dünya da görəcək ki, erməni vəhşiliyi nədir, bu, həqiqətdir və bunu hər kəs bilməlidir. Ermənistan özü bunu etiraf etməlidir, özü bizdən üzr istəməlidir. Ancaq bunu etməklə o bilsin ki, indiki Ermənistan rəhbərliyi - o vəhşilərin, vandalların, qaniçənlərin günahlarını bir qədər yumuş ola bilər. Bunu etməsə, məncə, Ermənistan özü heç vaxt ayağa dura bilməyəcək. Gərək, ilk növbədə, Ermənistan özü bu faciəni, bu cinayəti, hərbi cinayətini tanısın."

### AZAD LAÇINIMIZDA

Böyük Qayıdış proqramı çərçivəsində yenidən Laçına qədəm qoyan ailələr sevinc göz yaşları ilə doğma yurduna qovuşub. Onlar şəhərdə böyük coşqu ilə qarşılanıblar. Daha da gözəlləşən və abadlaşan Laçına qovuşan sakinlər əzəli yurdda rahat nəfəs alırlar. Köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb. Laçın şəhərində 570 ailə, yəni 2090 nəfərin daimi məskunlaşması təmin edilib. Qeyd edək ki, köçürülən ailələrin Laçın şəhərində dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət köç karvanları əzəli torpağımıza yol alır. Neçə ilin niskilini yaşamış insanların bu torpağa dönüşü tarixi hadisə olaraq yaddaşlara köçür. Neçə bahar, neçə qış əzəli torpaqdan uzaq qalan insanlar doğma yurdla görüşürlər. Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamına əsasən görülən işlər planlı şəkildə həyata keçirilir. 20 il ərzində şəhər əhalisinin sayı 18 min nəfərə çatacaq.

Aparılan genişmiqyaslı quruculuq işləri çərçivəsində 2025-ci ildə Laçında Beynəlxalq Hava Limanının istifadəyə verilməsi planlaşdırılır. Bununla yanaşı, rayonun yol-nəqliyyat infrastrukturu yenidən və ən müasir standartlar üzrə qurulur. Güləbird kəndində qısa müddət ərzində inşa edilmiş "Güləbird" Su Elektrik Stansiyası istifadəyə verilib. Bu, azad edilmiş torpaqlarda birinci elektrik stansiyasıdır. Erməni qəsbkarlar işğal dövründə bu stansiyanı da darmadağın etmişdilər. İndi təxminən 7000 nəfər əhali elektrik enerjisi təmin olunacaq.

### "DƏMİR YUMRUĞ"UN GÜCÜ

"Dəmir yumruğ"un gücü, Azərbaycan ordusunun əzmi, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi, xalqın Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşməsi nəticəsində 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımız azad olundu. Köç karvanları Cəbrayıl şəhərinə də yol aldı. Bu yaxınlarda Cəbrayıl şəhərinə 34 ailə - 129 nəfər köçürülüb. Doğma yurda qayıdan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Cəbrayıl şəhərinin Baş planına əsasən, müasir Cəbrayıl şəhəri özü və yaxınlıqdakı 5 kəndi əhatə edəcək və şəhərin ümumi ərazisi 625 ha təşkil edəcək. Layihədə şimaldan cənuba doğru uzanan Çaylaqçay ətrafında şəhərin mərkəz hissəsində təklif olunan "yaşıl zolaq" şəhərin əsas onurğası kimi verilib. Qeyd edək ki, rayon ərazisində bir çox tarix-memarlıq abidələrinin, o cümlədən Xudafərin körpüsünün yerləşməsi şəhərin gələcək özünəməxsus memarlıq görünüşünün yaradılmasında xüsusi rol oynayacaq.

Şəhərin bərpası və inkişafı üçün 4 mərhələ nəzərdə tutulur. 2026-cı ilin sonunadək təqribən 3 800 nəfərin şəhərdə yerləşəcəyi qeyd olunur, 2040-cı ilin sonuna qədər Cəbrayıl şəhərində 15 000 sakinin yaşayacağı proqnozlaşdırılır. Baş planda yaşayış üçün 143 hektar ərazi ayrılıb və burada az, orta mərtəbəli binaların, həyətyanı sahəyə malik fərdi yaşayış evlərinin inşası nəzərdə tutulub. Əhalinin 82%-nin orta və azmərtəbəli çoxmənzilli binalarda, 18%-nin isə fərdi evlərdə yaşayacağı planlaşdırılıb. Yaşayış evlərinin layihələndirilməsi zamanı şəhər ərazisindən səmərəli istifadə və müasir memarlıq həlləri əsas götürülüb.

Baş planların hazırlanması zamanı məskunlaşma sisteminin formalaşdırılmasında əhalinin məşğulluğunun davamlılığı əsas götürülüb. Şəhərin məşğulluq imkanları rayon ərazisindən keçən beynəlxalq əhəmiyyətli magistral yollar və zəngin təbii ehtiyatlar nəzərə alınmaqla proqnozlaşdırılıb. Beləliklə, şəhərin iqtisadi inkişafında xidmət və sənaye sektorlarının böyük rol oynayacağı, kənd təsərrüfatı sahəsinin isə digər yaşayış məntəqələrində daha çox inkişaf edəcəyi göstərilib. Baş planda ictimai-işgüzar zona üçün 22.87 ha ərazi ayrılıb. Burada inzibati və ofis binaları, mərkəzi meydan, mədəniyyət, ictimai-iaşə və turizm obyektləri yerləşdiriləcək. Şəhərin Baş planı hazırlanarkən nəqliyyatın planlaşdırılması zamanı insanyönümlü şəhər və təhlükəsiz hərəkət prinsipləri əsas götürülüb. Burada yol şəbəkəsi piyada keçidi və velosiped yollarının, ictimai nəqliyyatın üstünlük təşkil etdiyi formada layihələndirilib. Şəhərdaxili yol profillərində təxminən 60 km uzunluğunda piyada və velosiped yollarının salınması planlaşdırılıb. Cəbrayıl şəhərində küçə-yol şəbəkəsinin ümumi uzunluğu 45 km-dən çox olacaq.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır.

Azərbaycan bu gün quruculuq meydanında imza atdığı lahiyələri ilə sözünü deyir. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir.

Bugünkü günümüzün reallığı, əsas hədəf Qarabağın bərpası və Böyük Qayıdış strategiyasını reallaşdırılmasıdır. Azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılması əsas məsələlərdəndir. Əlbəttə ki, bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri planlı şəkildə həyata keçirilir. Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir və bu ərazilərdə reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, əzəəli torpaqlarımız yenidən dirçəlir, inkişaf edir, geniş abadlıq və quruculuq meydanına çevrilib.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Suriyadakı hadisələrin doğurduğu ƏKS-SƏDA VƏ REZONANS

***Suriyadakı silahlı müxalifətin məhz prezident Bəşər Əsədin hakimiyyətinin sona çatdığını və “yeni Suriyanın” başladığını elan etməsi bütün dünyanın diqqətini cəlb edib. Xüsusən də, artıq Dəməşqə nəzarət etdikləri barədə Suriya müxalifətinin yaydığı məlumatlar, həmçinin ölkənin baş naziri Qazi Əl-Cəlalinin hakimiyyəti xalq tərəfindən seçiləcək yeni hökumətə verməyə hazır olduğuni deməsi barədə informasiyalar dünya gündəmini zəbt edib, əsk-səda, hətta rezonans doğurub və bu, heç də təsadüfi sayıla bilməz.***

### Dəməşqdə baş verənlər heç də sıradan bir hadisə deyil, ölkənin tarixinə yazılan hadisələrdəndir

Bəli, 8 dekabr tarixində silahlı müxalifətin televiziya və radio mərkəzini ələ keçirərək xalqa müraciət etməsi, prezident Bəşər Əsədi devirdiklərini və ölkəyə nəzarəti ələ keçirdiklərini bildirməsi heç də sıradan bir hadisə deyil. Bu, həmin ölkənin tarixinə yazılacaq hadisələrdəndir. Bunu ölkənin baş naziri özü də etiraf edir. Belə ki, Suriyanın baş naziri Məhəmməd Qazi əl-Cəlali Əl-Ərəbiyyə telekanalı ilə söhbətində ölkənin tarixində yeni mərhələnin başladığını açıq şəkildə bildirib. Siyasətçinin sözlərinə görə, hökumət ”Həyat Təhrir əş-Şam” terror qruplaşmasının nümayəndələri ilə əlaqə yaradıb və silahlıların liderləri ilə danışıqlar aparır. O, həmçinin əmin edib ki, xalqın seçdiyi istənilən Nazirlər Kabineti ilə əməkdaşlığa hazırdır.

”Bu ölkə qonşuları ilə və dünya ilə yaxşı münasibətlər quran normal ölkə ola bilər, lakin bu məsələ yeni rəhbərlikdən asılıdır”, deyə baş nazir vurğulayıb. O, əlavə edib ki, müxalifət “heç kimə zərər verməyəcəyinə” söz verib. Əl-Cəlali həmçinin hökumətin əmlakına zərər verməməyə də çağırıb. Baş nazir prezident Bəşər Əsədin və Müdafiə Nazirliyinin rəhbəri Əli Abbasın harada olduğunu bilmədiyini etiraf edərək, Suriya lideri ilə sonuncu dəfə dekabrın 7-də axşam saatlarında danışdıqlarına da aydınlıq gətirib. Hazırda Dəməşqdəki beynəlxalq hava limanı belə öz fəaliyyətini dayandırıb və terminalın bütün işçiləri də təxliyə ediliblər. Bundan əvvəl, Əl-Cəzirə telekanalının qeyd etdiyi kimi, orada “xaos” var və hər halda məsələlərə, həmin ölkənin tarixinə yazılan hadisələrə aydınlıq gətirilməsinin tam zamanıdır.

### Məlumatların nə dərəcədə doğru olduğu məlum deyil, amma yaxın zamanda hadisələrin əsl üzü ortaya çıxandan sonra mövqelər daha maraqlı olacaq

Yerli media paytaxtda çaxnaşma və hökumət əleyhinə etirazların səngimədiyini bildirib. Rayonların birində nümayişçilərin prezident Bəşər Əsədin atası, ölkənin keçmiş rəhbəri Hafiz Əsədin heykəlini yıxdıqları barədə məlumatlar da var və bu da hadisələrlə bağlı müəyyən təsəvvürlər, fikirlər və proqnozlar formalaşdırır. Əl-Cəzirə telekanalı Suriya hərbçilərinin Dəməşqin mərkəzini tərk etməyə başladıqlarını və səhər saatlarında, deyildiyi kimi, silahlı müxalifət dəstələrinin Dəməşqdəki Seydnaya həbsxanasına nəzarəti ələ keçirdiklərini bildirib. Telekanal əlavə edib ki, bütün məhbuslar artıq azad ediliblər. BMT-nin Dəməşq ofisinin əməkdaşlarının təxliyəsi barədə də məlumat var. Rusiyanın Dəməşqdəki səfirliyi dekabrın 7-də axşam saatlarında bildirib ki, hərbi əməliyyatların genişlənməsi fonunda diplomatik nümayəndəlik normal rejimdə fəaliyyətini davam etdirir. Amma hələ məlum deyil ki, nə vaxta qədər davam etdirə biləcək və hansı hadisələrlə qarşılaşmalı olacaq. Daha dəqiq desək, təkcə Rusiya deyil, istənilən ölkə üçün hadisələrin gedişatı olduqca maraqlıdır və bilirik ki, həmin gedişatdan asılı olaraq addımlar atıla bilər.

Yayılan informasiyalar təsdiq edir ki, dekabrın 8-də Suriyada hakimiyyəti ələ keçirən qüvvələr mərkəzi Əməvi meydanında görünüblər və hətta bəzi yerli sakinlər də onlara qoşulublar. Məlumatlara görə, Dəməşqin bəzi bölgələrində yollar bağlanıb, əksər mağazalar da həmçinin bağlıdır. Suriyanın rabitə və texnologiya naziri İyad Məhəmməd əl-Xatib ölkənin internetində heç bir fasilə olmadığını bildirib. O, həmçinin “Həyat Təhrir əl-Şam” qrupunun nümayəndəsinin sonrakı işləri müzakirə etmək üçün onunla əlaqə saxladığını və internetə “24 saat çıxış”ın təmin edilməsi üçün tədbirlər görüldüyünü də açıqlayıb. Sözsüz ki, bu məlumatların, informasiyaların nə dərəcədə həqiqətə uyğun olduğu, doğru olub-olmadığı hələ məlum deyil, amma yəqin ki, yaxın zamanda hadisələrin ”əsl üzü” ortaya çıxacaq və indan sonrakı mövqelər daha maraqlı olacaq.

### Qonşu ölkənin, İsrailin münasibəti, daha dəqiq desək, reaksiyası tamamilə fərqli olub

Diqqətə çatdıraq ki, noyabrın 28-də “Həyat Təhrir əl-Şam”a məxsus qruplaşmalar gərginliyin azaldılması razılaşmasını pozaraq Hələb və İdlibə zərbələr endiriblər. Minlərlə əcnəbi döyüşçünün dəstəklədiyi terrorçular bir neçə istiqamətdən hərbi mövqelərə və əhalinin məskunlaşdığı ərazilərə hücum ediblər. Ordu da hücuma cavab verib. Suriya ordusu Hələbin qərbində silahlı müxalifət üçün təchizat xətlərinə və İdlibdəki terror qruplaşmalarına hücum edib. Artıq noyabrın 30-da Suriyanın ikinci ən böyük şəhəri Hələb və ətrafı beynəlxalq hava limanı və Kuveyris hərbi aerodromu qruplaşmanın nəzarətinə keçib. Dekabrın 8-nə keçən gecə ölkənin mühüm logistika mərkəzi olan Homs şəhərinin ələ keçirildiyi məlum olub. Bu qəsəbənin süqutu ilə silahlı müxalifət Suriyanın qərb sahilyanı rayonlarına hücum ehtimalını açıb və bir neçə saat sonra hökumət əleyhinə olan qoşunlar Dəməşqə daxil olublar. Bütün bu hadisələrə dünyanın digər dövlətlərinin münasibətindən məhz qonşu ölkənin, İsrailin münasibəti, daha dəqiq desək, reaksiyası tamamilə fərqli olub. Ən azından qonşu ölkə olaraq hadisələrə daha ciddi şəkildə yanaşılıb, əks halda İsrail tərəfindən ehtiyat tədbirləri görülməzdi.

Həqiqətən də İsrail hadisələrə biganə qalmayıb və dərhal Suriya sərhədinə tanklar göndərib. Dekabrın 8-də səhər saatlarında İsrail Müdafiə Qüvvələri öz qoşunlarını onu Suriyadan ayıran bufer zonaya yollayıb. Təbii ki, bütün bunlar yəhudi dövlətini qorumaq üçün edilib. Bunu rəsmi dövlət saytları belə açıq şəkildə qeyd edirlər. “Suriyada son hadisələrin, o cümlədən silahlı qrupların bufer zonaya daxil olmasının yaratdığı vəziyyətə görə, İsrail ordusu bufer zonasına və İsrailin müdafiəsi üçün vacib olan digər yerlərə də qüvvələr yerləşdirib”, deyə mediada aydın şəkildə infirmasiya yayılıb. Bununla belə vurğulanır ki, İsrail qonşu dövlətin daxili işlərinə qarışmaq fikrində deyil. Bəli, qarışmaq fikrində deyil, amma özünü qorumaq niyyətinin olmamasını da iddia etmək olmaz. Ən azından israillilər özlərini, öz sərhədlərini qorumaq üçün hazır vəziyyətdə olmalı olduqlarını bilirlər və buna görə də “hazırlıq” görülüb. Yəni, açıq şəkildə görünür ki, Suriyadakı hadisələr ən çox qonşu ölkədə, İsraildə əks-səda və hətta rezonans doğurub və dərhal tədbir görülməsini də məhz bu əks-səda, bu rezonans labüd edib.

### Suriyada baş verənlərə beynəlxalq reaksiya

ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp öz növbəsində Suriyadakı hadisələrə biganə yanaşmayıb. Tramp Suriyadakı vəziyyəti pisləyib. Bununla belə Ağ Evin yeni sahibi bildirib ki, ABŞ Suriyadakı vəziyyətə qətiyyən qarışmamalıdır. “Suriyada qarışıqlıqdır, lakin o, bizim dostumuz deyil və ona görə də ABŞ-ın bununla heç bir əlaqəsi olmamalıdır”, deyə Respublikaçı özünün “Truth” sosial şəbəkəsində qeyd edib. Bir sözlə, Amerikanın yeni seçilmiş prezidenti məlum hadisələrə nə biganə qalmayıb, nə də qarışmaq fikrində olmayıb və hətta ölkəsinin də bu məsələlərə qətiyyən qarışmayacağını elə indidən açıq şəkildə bəyan edib.

Ağ Evin Milli Təhlükəsizlik Şurasının mətbuat katibi Şon Savett də bildirib ki, ABŞ-ın hazırkı prezidenti Co Bayden Suriyadakı vəziyyətin inkişafını diqqətlə izləyir. ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan isə bildirib ki, Pentaqon İŞİD terrorçularının güclənməsi təhlükəsi nöqteyi-nəzərindən Suriyada vəziyyətin inkişafından narahatdır. Deməli, belə çıxır ki, qarışmasa da belə Suriyada baş verənlərə görə dünyanın ABŞ kimi böyük bir ölkəsi bərk ehtiyat edir. Hətta qonşu ölkə olmasa da belə ehtiyat edilir. İsrail kimi bufer zonaya görə son dərəcə narahatlıq keçirməsə də, ABŞ hansısa məqamları nəzərə alaraq, rahat ola bilmir. Elə buna görə də Amerikanın yeni prezidenti müşahidəçi kimi baxa bilmir və öz mövqeyini də nəinki gizlətmir, hətta aydın şəkildə də bildirir.

Təkcə ABŞ yox, dünyanın digər ölkələri də Suriyadakı olaylarla bağlı reaksiya veriblər. Çünki hadisələrə biganə qala bilməyiblər. Məsələn, Böyük Britaniya, Fransa və Almaniya Suriyada münaqişə tərəflərini deeskalasiyaya çağırıb. Deməli, Avropa ölkələri belə mövqe sərgiləyiblər. Bu isə onu deməyə əsas verir ki, avropalılar üçün də Suriyadakı hadislər heç də maraqsız deyilmiş. Əksinə, hadisələrin Avropada izlənildiyi qənaətinə gəlməkdə haqlıyıq. Bunu isə təsadüfi hesab etmək olmaz, çünki hansısa rakursda görünür Suriya hadisələri avropalılar üçün sıradan bir hadisə sayılmırmış. Hər halda, yaxın zamanda hər bir dövlətin mövqeyi və maraqları aydın şəkildə ortada olacaq və bu da həmin hadisələrin doğurduğu əks-sədanı, hətta rezonansı belə tam çılpaqlığı ilə ortaya qoyacaq.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov özü belə Suriyada döyüşləri dayandırmağın və BMT Təhlükəsizlik Şurasının 2254 saylı qətnaməsinin həyata keçirilməsinin təcili olduğunu deyib. O, silahlı müxalifətin Suriyada torpaqları ələ keçirməsinə icazə verilməsinin qəbuledilməz olduğuna diqqət çəkib. Bir sözlə, Rusiyada da hadisələrin əks-sadası özünü göstərib. Hətta buna bir rezonans da deyə bilərik, çünki digər siyasətçilərdən, məhz öz həmkarlarından fərqli olaraq, Rusiya XİN rəhbəri daha kəskin şəkildə fikir bildirib. Yəqin ki, Lavrov kimi təcrübəli bir siyasətçinin belə bir kəskin mövqe sərgiləməsi təsadüfi ola bilməzdi və hər halda, yaxın zamanda bunun da pərdə arxasında nələrin olduğu özünü göstərəcək.

Qısa şəkildə desək, Suriyadakı hadisələr demək olar ki, dünyanın əksər ölkəsində diqqətə səbəb olub. Dünyanın əksər ölkəsi də, həmin ölkələrin liderləri də buna öz “münasibətlərini” bildiriblər. Düşünmürük ki, həmin münasibət elə-belə bildirilsin və əminik ki, Suriyadakı məlum hadisələri bir çox ölkələrin liderləri hansısa formada, özü də fərqli şəkildə qəbul edib. Bununla belə görünən odur ki, avropalılar da, amerikalılar da olanlara görə çox ciddi şəkildə təsirləniblər və bu da dünyanın əksər nöqtələrində əks-səda, rezonans doğurduğu anlamına gəlir.

***İnam Hacıyev***

# 2025-ci ildə sosial müdafiəyə ayrılan bütün vəsaitlərdə artımlar ediləcək

***Milli Məclisdə müzakirə olunan 2025-ci ilin dövlət büdcəsi layihəsində sosial müdafiə sahəsində bəzi yeniliklər və sosial sahələrə vəsaitin artırılması nəzərdə tutulub. Əsas məqamları oxucularımızın diqqətinə çatdırmaq istərdik.***



Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il üçün gəlirləri və xərcləri bərabər olmaqla 7 milyard 676 milyon manat proqnozlaşdırılır ki, bu, cari ilin büdcəsinə nisbətən 726,6 milyon manat və ya 10,5% çoxdur.

2025-ci ildə Fondun büdcəsinin balanslaşdırılması məqsədi ilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait 1 milyard 600 milyon manat proqnozlaşdırılır ki, bu da 2024-cü il üzrə təsdiqlənmiş transfert məbləğindən 368 milyon manat çoxdur. Transfertin həcmindəki görünən artım 2024-cü ildə dövlət sosial müdafiə fondunun gəlirlərindən 387 mln manatın dövlət büdcəsinə yönəldilməsi ilə bağlıdır.

DSMF-nin gələn ilə proqnozlaşdırılan ümumi xərclərinin 96,5%-ni əhaliyə ödənişlər təşkil edəcək. Əmək pensiyalarının orta aylıq məbləğinin cari ilin sonuna 494 manat, gələn ildə isə 535 manat olacağı proqnozlaşdırılır. Növbəti ildə yaşa görə pensiyanın orta aylıq məbləğinin cari ildəki 527 manatdan 44 manat artaraq 571 manata yüksəldilməsi gözlənilir. 2025-ci ildə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə, 3 yaşınadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsinə 198,4 milyon manat vəsait nəzərdə tutulub ki, bu da cari ilin təsdiqlənmiş proqnozuna nisbətən 9,3%, yaxud 16,8 milyon manat çoxdur.

Fond tərəfindən investisiya fəaliyyəti dövründə ümumilikdə 67,18 mln. manat gəlir əldə edilmiş və 2025-cii ilin sonuna qədər əlavə olaraq 15,82 mln. manat gəlir əldə olunması gözlənilir. Fondun investisiya gəlirləri şəhid ailələrinin, müharibə əlillərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması və sair istiqamətlərdə sərf edilir. Növbəti ilin dövlət büdcəsinin xərclərində sosialyönümlü xərclərin xüsusi çəkisinin 41%-ə çatdırılması , o cümlədən son 5 ildə bu istiqamətdə dövlət büdcəsindən ayrılan vəsaitin həcminin mütləq ifadədə 1,6 dəfə artması vacim məqamdır. Sosial müdafiə fondunnun 2025-ci il üçün gəlirlərinin 78%-nin və ya 6 milyard manatının məcburi dövlət sosial sığorta (MDSS) daxilolmaları üzrə formalaşacağı proqnozlaşdırılır. Bu isə cari ilin müvafiq göstəricisindən 519 milyon manat və ya 9,5 % çoxdur.

Büdcədən maliyyələşən təşkilatlar üzrə 2025-ci il üçün daxilolmalar 2 milyard manat, qeyri-büdcə təşkilatları üzrə isə 4 milyard manat proqnozlaşdırılır. Qeyri-büdcə sektoru üzrə gəlirlər sosial sığorta haqlarının 66%-ni təşkil edir.

Ümumilikdə 2024-cü ilin təsdiq edilmiş göstəriciləri ilə müqayisədə 2025-ci il üçün büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 7,1% və ya 135 milyon manat, qeyri-büdcə sektoru üzrə daxilolmalar isə 10,8% və ya 385 milyon manat artımla proqnozlaşdırılmışdır.

Növbəti ildə Fondun xərcləri 7 milyard 676 milyon manat proqnozlaşdırılır. Fondun 2025-ci il xərclərinin 97%-i və ya 7 milyard 409 milyon manatı əhaliyə ödənişlərin payına düşür. Bu göstərici 2023-cü illə müqayisədə 1 milyard 521 milyon manat, 2024-cü illə müqayisədə isə 702 milyon manat çoxdur. Bu məbləğin 7 milyard 211 milyon manatı əmək pensiyalarının, 198 milyon manatı isə sosial sığorta hesabına verilən müavinət xərclərindən ibarət olacaqdır.

2025-ci il üzrə əmək pensiyalarının maliyyələşdirilməsi üçün ayrılan vəsait 2024-cü ilin təsdiqlənmiş xərcləri ilə müqayisədə 686 milyon manat və ya 10,5% artımla nəzərə alınmışdır. Növbəti il üçün pensiyaların orta aylıq məbləği 535 manat proqnozlaşdırılır ki, bu da 2024-cü ilin sonuna gözlənilən göstəricidən 8,3% çoxdur. Yaşa görə pensiyanın orta aylıq məbləği isə növbəti ildə 571 manat təşkil edəcək. Bu isə cari il üçün yaşa görə pensiyaların ilin sonuna gözlənilən orta aylıq məbləği ilə müqayisədə 8,3% artım deməkdir. Cari ilin sonuna yaşa görə pensiyaların orta məbləği 527,3 manat olaraq gözlənilir.

Pensiya sistemi üzrə əsassız və saxta ödənişlərin aradan qaldırılması nəticəsində 2024-cü ilin 9 ayında indeksasiya əmsalları tətbiq edilmədən 955 milyon manat, indeksasiya tətbiq edildikdə isə 1 milyard 263 milyon manat əsassız xərclərin qarşısı alınmışdır.

2024-cü ildə Fond tərəfindən aparılmış yaşa görə pensiyaların proaktiv təyinatlarının payı ümumi təyinatların 89%-ni əhatə etmişdir. Bu isə həmin sayda şəxsin heç bir ünvana yaxınlaşmadan öz sosial hüquqlarını reallaşdırması deməkdir.

2025-ci ildə İşsizlikdən Sığorta Fondunun gəlirləri və xərcləri balanslaşdırılmaqla 260,7 milyon manat nəzərdə tutulmuşdur ki, bu da cari illə müqayisədə 22,7 milyon manat, yaxud 9,5% çoxdur. Büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 50 milyon manat, qeyri-büdcə təşkilatları üzrə isə 156 milyon manat proqnozlaşdırılır. Sığorta haqları üzrə yığımın 76%-i qeyri-büdcə sektorunun payına düşəcəkdir ki, bu da cari ilə nisbətən 17 milyon manat çoxdur.

Ümumilikdə, 2024-cü ilin təsdiq edilmiş göstəriciləri ilə müqayisədə 2025-ci il üçün büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 10%, qeyri-büdcə sektoru üzrə daxilolmalar isə 12% artımla proqnozlaşdırılmışdır.

Fondun 2025-ci il üçün proqnozlaşdırılan 260,7 milyon manat məbləğində xərclərinin 77 milyon manatı özünüməşğulluq proqramının təşkilinə, 35 milyon manatı peşə hazırlığı və əlavə təhsilin təşkilinə, 17 milyon manatı işsizliyə görə sığorta ödənişlərinə, 1,5 milyon manatı peşəyönümü məsləhət xidmətlərinin göstərilməsinə, 1 milyon manatı peşə standartlarının hazırlanmasına, 4 milyon manatı sosial iş yerlərində əməkaqqının bir hissəsinin maliyyələşdirilməsinə və 4,5 milyon manatı digər aktiv məşğulluq tədbirlərinə yönəldiləcəkdir.

İşsizlikdən sığorta fondunun gəlirləri və xərcləri bərabər olmaqla 260 milyon 700 min manat nəzərdə tutulur ki, bu da cari ildəkindən 9,5% çoxdur. Fondun gəlirlərinin 206,3 milyon manatı, yaxud 79,1%-i işsizlikdən sığorta haqları üzrə yığım hesabına formalaşacaq ki, bu da 2024-cü ilin təsdiq edilmiş müvafiq göstəricisindən 11,7% çoxdur. Sığorta haqları üzrə yığımın 75,9%-i qeyri-büdcə sektorunun payına düşəcək.

Fondun 2025-ci il xərclərinin 6,5 %-i və ya 17 milyon manatı işsizliyə görə sığorta ödənişlərinin payına düşür. Bu göstərici 2024-cü illə müqayisədə 2 milyon manat çoxdur. Gələn il əmək yarmarkalarının və əmək birjalarının təşkili istiqamətində 500 min manat xərclənməsi nəzərdə tutulur. Bu, ölkədə 110 regional iri əmək yarmarkasının və digər tədbirlərin təşkil olunmasına kifayət edəcəkdir. Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslər üçün əlavə iş yerlərinin, sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi və digər aktiv məşğulluq tədbirlərinin icrası üçün 2025-ci ildə 3 milyon manat xərclənməsi nəzərdə tutulur.

***Elçin Bayramlı***
***Parlament müxbiri***

# Çipsilər insanda niyə bağlılıq yaradır?

***"Çipsilər, yəni kartof çipsiləri, müxtəlif xəstəliklərin riskini artıran bir sıra amillər daşıyır". Bu sözləri SİA-ya açıqlamasında dietoloq Ceyhunə Yusifova deyib. O bildirib ki, bunun əsas səbəblərindən biri onların yüksək kalorili, yağlı və duzlu olmalarıdır: "Bu səbəblərlə çipsilərin aşağıdakı xəstəliklərin riskini artırdığı düşünülür:***



*MÜNASİBƏT BİLDİRİLDİ*

**1.** Obezite: Yüksək kalori tərkibi ilə çipsilər, düzgün balanslaşdırılmış bir pəhriz olmadan istehlak edildikdə, obeziteyə səbəb ola bilər.

**2.** Ürək xəstəlikləri: Tərkibindəki yüksək doymuş





yağ və duz miqdarı ürək xəstəlikləri riskini artırır. Uzun müddət ərzində bu cür qidaların istehlakı, yüksək qan təzyiqi və xolesterol səviyyəaini artıraraq ürək çatışmazlığına səbəb ola bilər.

**3.** Diabet: Yüksək karbohidrat və şəkər tərkibi olan çipsilər, qan şəkərinin sürətli artımına səbəb ola bilər. Bu, diabet riskini artırır.

4. Mədə-bağırsaq problemləri: Çipsilərin tərkibindəki yüksək yağ və duz, mədə-bağırsaq sisteminə zərər verə bilər və uzunmüddətli istehlak mədə problemlərinə yol aça bilər.

### Çipsilər ürək çatışmazlığına səbəb ola bilərmi?

Bəli, çipsilər uzun müddət ərzində yüksək miqdarda istehlak edildikdə, ürək çatışmazlığına səbəb ola biləcək bir sıra faktorları artırır. Çipsilərin yağ, duz və kalori miqdarı ürəkdamar sağlamlığına zərər verə bilər.

### Çipsilər insanda niyə bağlılıq yaradır?

Çipsilər, adətən yüksək miqdarda yağ, duz və şəkər ehtiva edir ki, bunlar da beyində mükafat mexanizmasını aktivləşdirir. Bu maddələr insanların məmnunluq və sevinc hissini artırır. Xüsusilə çipsilərin qoxusu və krunching (qırılma) səsi də onların cəlbediciliyini artırır. Bununla yanaşı, çipsilərin asanlıqla əldə oluna bilən və sürətli bir qəlyanaltı olması da bağlılığa səbəb olur".

"Çipsilərin ümumiyyətlə Sağlamlığa Təsiri beledir:

**1.** Kimyəvi Tərkib: Çipsilər, qızardıldığı zaman akrilamid adlı bir kimyəvi maddə yarada bilər. Bu maddənin yüksək konsentrasiyaları xərçəng riskini artırmaqla əlaqədar mübahisələrə səbəb olub.

**2.** Qida əlavələri: Bəzi çipsi markalarında saxlama müddətini artırmaq və dadını gücləndirmək üçün əlavələr (məsələn, E381, E621 (MSG)) istifadə edilir. Bu əlavələr bəzi insanlarda allergik reaksiyalar və ya həssaslıq yarada bilər.

**3.** Sıfır qida dəyəri: Çipsilərin ehtiva etdiyi mineral, vitamin və digər qida elementlərinin miqdarı çox azdır. Bu da onları "boş kalorilər" adlandırmağa səbəb olur, yəni bədənin enerji ehtiyacını ödəsə də, qida dəyəri yoxdur.

**İnsanlarda Bağlılıq**

1. Sosial Faktorlar: İnsanlar çipsiləri sosial fəaliyyətlərdə (film gecələri, pikniklər, partilər) tez-tez istehlak edirlər. Bu cür vəziyyətlər, çipsilərə psixoloji bağlılıq yarada bilər, çünki insanlar bu qidaları sosiallaşma ilə əlaqələndirirlər.

**2.** Rahatlıq və Stres İdarəetməsi: Bəzi insanlar stresli anlarda rahatlamaq üçün çipsi kimi yüksək yağ və karbohidratlı qidalara yönəlir. Bu, müvəqqəti məmnunluq gətirə bilər, ancaq uzun müddətdə sağlamlığa zərər verə bilər.

**Alternativlər**

Sağlam Atışdırmalar: Çipsilər yerinə daha sağlam alternativlər (məsələn, evdə bişirilmiş, az yağlı və ya tərəvəz çipsiləri) seçmək olar. Bununla yanaşı, tam taxıl, quru meyvələr, yulaf, qoz-fındıq kimi daha qida dəyəri yüksək qəlyanaltılar da mövcuddur. Çipsilər zövqlü və cəlbedici olsa da, onların çox istehlakı sağlamlıqda müxtəlif problemlər yarada biləcək risk faktorlarını artırır. Müxtəlif sağlam seçimlərə yönəlmək, bədəninizi qorumaq və ümumi sağlamlığınızı yaxşılaşdırmaq baxımından önəmlidir" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Bələdiyyə seçkiləri: Yeni azad, demokratik seçkilərə doğru

Azərbaycanın nümunəvi, beynəlxalq standartlara söykənən azad, demokratik seçki ənənəsi mövcuddur. Bu ənənənin əsası isə Ulu Öndərimiz Heydər Əliyevin xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra qoyulub. Müstəqil Azərbaycanımızın tarixində ilk azad, demokratik, xalqın iradəsinə əsaslanan seçkilər isə 1993-cü il oktyabrın 3-də keçirilib. Oktyabrın 3-də keçirilən prezident seçkilərində ölkə əhalisinin mütləq əksəriyyəti xalqımızın xilaskarı, dövlətimizin qurucusu Ulu Öndərimiz Heydər Əliyevə səs verməklə Onun Prezident seçilməsinə dəstək oldu. Azad, demokratik şəraitdə keçən prezident seçkiləri tariximizə ilk demokratik seçki olaraq düşdü. Sonrakı seçki proseslərində ənənə dəyişmədi, əksinə daha da təkmilləşdi və nümunəvi, heç bir qüsura, çatışmazlığa yol verilməyən seçki oldu. 2003-cü ilin 15 oktyabrında keçirilən prezident seçkilərində xalqımız Cənab İlham Əliyevə etimad göstərməklə Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasətin davam etdirilməsinə dəstək göstərdi. 2008-ci 15 oktyabr, 2013-cü il 9 oktyabr, 2018-ci il 11 aprel və nəhayət 2023-cü il oktyabrın 7-də keçirilən prezident seçkilərinin mütləq qalibi Fateh Sərkərdə, Ali Baş Komandan İlham Əliyev oldu. Azad və demokratik şəkildə baş tutan prezident seçkilərində xalq axın-axın seçki məntəqələrinə gedərək səsvermədə iştirak etdi və Qarabağı işğaldan azad edən Fateh Sərkərdəsinə minnətdarlıq borcunu yerinə yetirmək üçün Ona səs verdi. Bu sevincli günlərin davamı təbii ki, olacaq. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən ərazilərimizdə geniş quruculuq abadlıq işləri fonunda insanlar öz doğma yurd-yuvalarına qayıdırlar. O yerlərə yeni nəfəs verilir. Doğma yurdlarına dönən insanlar işləyir, çalışır və bölgənin inkişafına öz töhfələrini verməyə çalışırlar.




Tahir Budaqov: “YAP növbəti bələdiyyə seçkilərinə də yeni reallıqlar və çağırışlar fonunda böyük qələbə əzmi ilə qatılır”






### Azad, demokratik seçkilərin tək qalibi

Ümumilikdə Azərbaycan öz dövlət müstəqilliyini elan etdiyi 18 oktyabr 1991-ci ildən ölkəmizdə 25 səsvermə, o cümlədən 19 seçki keçirilib. Son 33 ildə ölkədə 8 prezident, 7 parlament, 5 bələdiyyə seçkisi, həmçinin 6 referendum keçirilib. 2025-ci ilin ilk ayında daha bir seçki - bələdiyyə seçkilərinin keçirilməsi planlaşdırılır. Bununla bağlı Mərkəzi Seçki Komissiyasının (MSK) keçirilən iclasında məlumat verilib. Bildirilib ki, Azərbaycanda növbəti bələdiyyə seçkiləri 2025-ci il yanvarın 29-na təyin edilib. İşğaldan azad edilən ərazilərdə tam məskunlaşma bitmədiyinə görə 118 saylı Ağdam - Xocalı, 120 saylı Cəbrayıl - Qubadlı, 121 saylı Laçın, 122 saylı Xankəndi, 123 saylı Kəlbəcər, 124 saylı Şuşa - Ağdam - Xocavənd, 125 saylı Zəngilan - Qubadlı seçki dairələri istisna olmaqla 118 seçki dairəsində təşkil olunacaq. MSK-dan verilən məlumata görə, bələdiyyə seçkiləri ilə bağlı seçici siyahılarının məlumat lövhələrində yerləşdirilməsi 2024-cü il dekabrın 25-dək başa çatdırılacaq. Bu “Azərbaycan Respublikasında bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı”nında öz əksini tapıb.Təqvim planına əsasən, seçicilərin qeydiyyatdan çıxma vəsiqələrinin hazırlanması və seçki komissiyalarına təqdim edilməsi isə dekabrın 15-dək yekunlaşacaq. Vəsiqələrin dairə seçki komissiyaları tərəfindən seçicilərə verilməsi prosesi isə 2025-ci il yanvarın 4-dək həyata keçiriləcək. Milli Məclisdə “Bələdiyyələrin birləşməsi, fəaliyyəti, ayrılması və ləğv edilməsi haqqında” Qanun qəbul edildikdən sonra 3000-ə qədər əhalisi olan yaşayış məntəqəsində 1 bələdiyyə olması qərara alınıb. Bunla bələdiyyələrin sayı təxminən iki dəfə azaldılıb. MSK-nın siyahısına uyğun olaraq, ölkədə 2025-ci il yanvarın 29-da 685 bələdiyyəyə seçkilər keçiriləcək. Həmin bələdiyyələr üzrə ümumilikdə 8 min 71 bələdiyyə üzvü seçiləcək. Məlumat üçün qeyd etmək lazımdır ki, 1999-cu ilin dekabrında ilk bələdiyyə seçkiləri keçirilib. Sonrakı mərhələdə 2004, 2009, 2014 və 2019-cu illərdə təşkil edilmişdir. Hər bir seçki Seçki Məcəlləsinə və beynəxalq hüquq normaları əsasında təşkil edilib.

### YAP seçkilərə gedərkən xalqa arxalanır

Birmənalı şəkildə demək olar ki, budəfəki bələdiyyə seçkiləri hüququn aliliyi qorunmaqla daha gərgin və rəqabət şəraitində keçəcək. Çünki bələdiyyələrin fəaliyyəti haqqında yeni qanunvericilik aktlarının, xüsusilə də Prezident İlham Əliyevin bələdiyyələr birləşməsi, bələdiyyə əraziləri və torpaqları barədə yeni və mükəmməl Sərəncamların imzalanması bələdiyyələrin işində iştirak edənlərin sayının artmasına təkan verib. Təbii ki, namizədlərin sayının çox olması seçkilərin təbliğat -təşviqat kampaniyasının gərgin keçəcəyindən xəbər verir. Nəzərə almaq lazımdır ki, bu günlərdə Prezident İlham Əliyev “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” qanununa əlavə edilmiş dəyişikliklərlə bağlı sərəncam imzalayıb. Sərəncama əsasən ölkə başçısı Nazirlər Kabinetinə tapşırıb ki, üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş “Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı”nda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin. Sərəncamda qeyd olunur ki, Nazirlər Kabineti mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlayaraq unun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

### Bələdiyyə seçkilərinə maraq çox yüksəkdir

Bələdiyyə seçkilərinə yüksək maraq həm də ondan irəli gəlir ki, insanlar ərazilərin inkişafında dövlətin dəstəyinə arxalanırlar. İnanırlar ki, irəli sürülən təşəbbüslər, təqdim olunan layihələr dövlət tərəfindən dəstəklənəcək. Bələdiyyələrin sayının azaldılması və fəaliyyətinin daha da gücləndirməsinə xidmət edən qanunların qəbulu bələdiyyələrə inamı artırıb. Yəni yuxarıda qeyd etdiyim kimi, bələdiyyə seçkiləri yüksək fəallıqla baş tutacaq. Təbii ki, budəfəki seçkilərində qalibi xalqın partiyası olan Yeni Azərbaycan Partiyası olacaq. Çünki xalqın seçimi yalnız Yeni Azərbaycan Partiyasıdır. Ona görə ki, xalq Ulu Öndərimiz Heydər Əliyevin qurucusu olduğu və ölkə Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasına dərin hörmət və inam bəsləyir. Bu inam 21 noyabr 1992-ci ildə Dahi Öndərimiz Heydər Əliyevin müəllifliyi ilə YAP yarandığı dövrdən qoyulub. O dövrdən bu günə qədər inam və mövqe dəyişməyib. Söz yox ki, bu inam və etimad Azərbaycan dövləti var olduqca dəyişməz qalacaq. Bu baxımdan əminliklə demək olar ki, azad və demokratik şəraitdə baş tutacaq bələdiyyə seçkilərinin də qalibi Cənubi Qafqazın lider partiyası olan Yeni Azərbaycan partiyası olacaq. Artıq YAP böyük sürətlə seçkilərə hazırlığa başlayıb. Məsələ ilə bağlı dekabrın 2-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin növbəti iclası keçirilib. İclasda ilk olaraq “Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planı” müzakirə edilərək təsdiq olunub. YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov demokratik inkişaf yolunda əmin addımlarla irəliləyən Azərbaycanın daha bir mühüm ictimai-siyasi proses ərəfəsində olduğunu qeyd edib. “Məlum olduğu kimi, 2025-ci il yanvarın 29-da ölkəmizdə növbəti bələdiyyə seçkiləri keçiriləcək. Siyasi sistemin aparıcı qüvvəsi olan Yeni Azərbaycan Partiyası indiyədək bütün seçkilərə yüksək səviyyədə hazırlaşıb və inamlı qələbələrə imza atıb. Xalqın etimadını layiqincə doğruldan YAP növbəti bələdiyyə seçkilərinə də yeni reallıqlar və çağırışlar fonunda böyük qələbə əzmi ilə qatılır”, - deyən Tahir Budaqov bələdiyyə seçkilərinin keçiriləcəyi 118 seçki dairəsinin hər biri üzrə Yeni Azərbaycan Partiyasının öz namizədlərini irəli sürəcəyini diqqətə çatdırıb.

### YAP-ın 19 nəfərdən ibarət Mərkəzi Seçki Qərargahı yaradılıb

Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclasında gündəliyində olan digər məsələlər haqqında məlumat verilib. Sonra Yeni Azərbaycan Partiyasının 19 nəfərdən ibarət Mərkəzi Seçki Qərargahının yaradılması haqqında qərar qəbul olunub. İdarə Heyətinin qərarı ilə Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi, həmçinin səsvermə günündək seçki komissiyalarının iclaslarını müşahidə edəcək şəxslər təyin edilib. İclasda çıxış edən YAP Sədrinin müavini Əli Əhmədov, partiyanın İdarə Heyətinin üzvləri – Arif Rəhimzadə, Hikmət Məmmədov, Mübariz Qurbanlı və Aynur Sofiyeva seçki kampaniyasının uğurla həyata keçirilməsi üçün qarşıda duran vəzifələrdən bəhs ediblər.

İclasa yekun vuran YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərinin də mütəşəkkil həyata keçirilməsi üçün partiyanın bütün resurslarının cəlb olunacağına əminliyini ifadə edib və bu prosesdə iştirak edəcək partiya üzvlərinə müvəffəqiyyətlər arzulayıb. Bütün görülən və həyata keçirilən işlər bir daha onu deməyə əsas verir ki, bələdiyyə seçkiləri yüksək seçici fəallığı baş tutacaq. Bununla müstəqil Azərbaycanımız bir daha dünyaya hüquqi, demokratik dövlət quruculuğuna və azad, şəffaf seçki keçirmək ənənəsinə sadiq olduğunu nümayiş etdirəcək.

***İLHAM ƏLİYEV***

# Medianın İnkişafı Agentliyi açıqlama yayıb




Bir sıra sosial şəbəkə istifadəçiləri tərəfindən Gəncə şəhəri ətrafında partlayış səslərinin eşidilməsi və təcili tibbi yardım maşınlarının intensiv hərəkətinin müşahidə olunması ilə bağlı paylaşılan məlumatlar həqiqəti əks etdirmir və cəmiyyətdə süni ajiotaj yaratmağa yönəlmişdir. AZƏRTAC xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyinin açıqlamasında bildirilir. Qeyd edilir ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyi cari ilin hazırlıq planına uyğun olaraq, Quru Qoşunları bölmələrinin Seyfəli poliqonunda taktiki təlim keçirdiyini və narahatlığa heç bir əsas olmadığını bildirib. "Sosial şəbəkə seqmentinə bu tipli yalan məlumatların yayılmasını və təkrar tirajlanmasını yolverilməz hesab edirik.

Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi məlumatlara inanmağa, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların təsirinə düşməməyə çağırırıq", - deyə agentliyin açıqlamasında vurğulanır.

# "iPhone" nə zaman yararsız sayılır?

***""İcloud" şifrəmizi itirmək telefonumuzun yararsız olduğu anlamına gəlmir. Birincisi biz icloud sisteminin nə olduğunu anlamalıyıq. Məsələn, biz "Apple" cihazını əldə edirik, amma təəssüflər olsun ki əldə etdiyimiz cihazın işləmə prinsipini bilmirik. 70 faiz istifadəçinin bu barədə anlayışı yoxdur. Ona görə də "Apple" alan istifadəçilər bu cür problemlərlə tez-tez rastlaşır". Bu sözləri SİA-ya açıqlamasında İnformasiya Texnologiyaları Elmləri üzrə Ekspert Fərrux Rəcəbli deyib.***



Fərrux Rəcəbli sözlərinə belə davam edib: ""Apple" qurğularda iki cür hesab forması var: "Apple" hesabı və "İcloud" hesabı. "Apple" hesabı birbaşa qurğunun özündən istifadə etmək üçündür. İcloud hesabı isə qurğunu buluda bağlamaq üçündür. "İcloud" hesabı yaradanların çox təəssüf ki, bu barədə məlumatı yoxdur. "İcloud" bizə sadəcə qurğunu buluda bağlamaq imkanı yox, həmçinin, buludda müəyyən bir yaddaş imkanı verir ki, biz məlumatlarımızı həmin buludda yerləşdirə bilərik. "İcloud" açdıqdan sonra cihazımız avtomatik olaraq bu hesaba bağlı olur və müəyyən səviyyədə buluddan idarə imkanımız olur. Cihazı sıfırlama, məlumatları silmə, yerini müəyyən etmə və s. bura aiddir.

"İcloud" hesabını itirdikdə onun sıfırlanması mümkündür. İcloud hesabına bağlı nömrə, yaxud alternativ mail adresimiz varsa bu formada sıfırlaya bilirik. Əgər bu məlumatların heç biri bizdə yoxdursa, problem burada yaranır. Bu halda hesabı sıfırlaya bilmirik və bu səbəbdən "Apple" şirkətinin təhlükəsizlik strategiyası olaraq əgər cihaz İclouda bağlıdırsa və istifadəçi "icloud" hesabını bilmirsə, bu zaman telefonun işə salınması mümkün deyil. Bu halda telefon yararsız sayılmır. Biz telefonun həqiqətən də bizə məxsua olması sübut etmək üçün "Apple"yə müraciət edə bilərik. Azərbaycanda rəsmi yerli "Apple" servis mərkəzi yoxdur. Düzdür, "Apple" yazılı yerlər var. Amma bu rəsmi deyil. Yenə də istifadəçi ya birbaşa applenin saytına daxil olaraq, ya da texniki servisə yaxınlaşaraq problemlə bağlı dəstək verə bilər. "Apple"yə müraciət olunduqdan sonra doğrulama məlumatları tələb olunur. Bunları təstiq etdikdən sonra 20 gün ərzində Apple özü sənə bir link göndərərək həll yolu verir. Linkə maildən daxil olaraq hesabdan şifrəni dəyişib telefonu aktiv edirsən. Telefon sənə məxsus deyilsə, bu halda o telefonu aktiv etmək qeyri-mümkündür və o telefon yararsız hesab olunur. Bunun əslində başqa alternativ həlləri var. Amma təəssüflər olsun ki, Azərbaycanda yoxdur".

***Ayşən Vəli***

# Ən çox Omeqa-3 ehtiva edən balıq hansıdır?



**MÜTƏXƏSSİS AÇIQLADI**

"Omeqa-3 yağ turşuları insan sağlamlığı üçün həyati əhəmiyyət daşıyan doymamış yağlardır. Bu maddələr ürək-damar sistemi, beyin funksiyaları, immunitet və iltihabların azaldılması üçün çox faydalıdır. İnsan orqanizmi Omeqa-3 yağ turşularını sintez edə bilmədiyi üçün onları qidalar vasitəsilə almaq vacibdir. Balıq və dəniz məhsulları omeqa-3-ün əsas təbii mənbələridir". Bu sözləri SİA-ya açıqlamasında təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib.

Asim Vəliyev sözlərinə belə davam edib: "Qızılbalıq omeqa-3 yağ turşularının ən zəngin mənbələrindən biridir. Hər 100 qram qızılbalıqda təxminən 2.2-2.5 qram EPA və DHA birləşməsi mövcuddur. Bundan əlavə qızılbalıq D vitamini, selenium və yüksək keyfiyyətli proteinlə zəngindir.

Skumbriya balığı da omeqa-3 yağ turşuları ilə zəngindir. Hər 100 qram skumbriya təxminən 2.6 qram omeqa-3 ehtiva edir. Bu balıq növü həm də B12 vitamini və seleniumla zəngindir, ancaq bəzi növləri yüksək civə səviyyəsinə malik ola bilər, bu səbəbdən diqqətli olmaq lazımdır. Sardinalar omeqa-3 yağ turşuları ilə yanaşı kalsium və D vitamini ilə də zəngindir. Hər 100 qram sardina təxminən 1.5-2.0 qram omeqa-3 ehtiva edir. Sardinaların çoxu konserv şəklində satılır və



əlavə olaraq asanlıqla əldə edilə bilər.

Tuna balığı omeqa-3 yağ turşularını təmin edən əsas balıqlardan biridir. Xüsusilə orkinos (albacore) növü yüksək EPA və DHA tərkibinə malikdir. Hər 100 qram tuna 1.2-1.6 qram omeqa-3 təmin edə bilər. Lakin, tunanın bəzi növləri civə ilə çirklənmə riski daşıdığı üçün həddindən artıq istehlak edilməməlidir. Omeqa-3 yağ turşuları müxtəlif orqan və sistemlərə müsbət təsir edir. Triqliserid səviyyəsini azaldır, qan təzyiqini normallaşdırır və iltihabları aradan qaldırır. Omeqa-3 sinir hüceyrələrinin quruluşunda iştirak edir və alzheimer, depressiya və diqqət çatışmazlığı kimi problemlərin qarşısını ala bilər.

Hər balıq növünün özünəməxsus xüsusiyyətləri var və seçim şəxsi ehtiyaclara və sağlamlıq vəziyyətinə bağlıdır. Əgər omeqa-3 tərkibi əsas prioritetdirsə, qızılbalıq, skumbriya və sardina daha yaxşı seçimdir. Lakin, civə riski yüksək olan balıqlar (skumbriyanın bəzi növləri, tuna, qılınc balığı) həftədə bir və ya iki dəfədən çox istehlak edilməməlidir.

Omeqa-3 yağ turşularının təbii mənbəyi olaraq balıqlar sağlam qidalanmanın əvəzolunmaz bir hissəsidir. Qızılbalıq, skumbriya, sardina və hamsi kimi növlər tərkibindəki yüksək EPA və DHA miqdarı ilə fərqlənir. Lakin, balanslı və müxtəlif qidalanma üçün digər mənbələrdən də (kətan toxumu, qoz, çia toxumu) omeqa-3 əldə etmək tövsiyə olunur. Həmçinin balıq seçərkən ekoloji təsirləri nəzərə almaq və davamlı balıqçılıqdan əldə edilən məhsullara üstünlük vermək vacibdir".

***Ayşən Vəli***



**MƏTLƏB**
*Metlebsalahov@mail.ru*

# Suyu süzülən BAKI...

## *Harada gəldi tikilən "novostroykalar" Bakını gölməçələrə çevirir, şəhərin kanalizasiya xətlərini məhv edir*

Bakı bəlkə də yeganə şəhərlərdən biridir ki, bu şəhərdə yaşayan insanlar il boyu böyük yaradana dua edir, imdad diləyirlər ki, yağış yağmasın, bu şəhər qar-çovğun üzü görməsin. Əlbəttə təbiətin gözəlliklərini görmək, seyr etmək hər bir insanın arzusudur. Amma Bakı sakinləri xaric. Niyə? Çünki azca yağış güclənən kimi bu plansız, necə gəldi tikilən şəhərin yollarını, küçə və məhəllələrini su basır, əhali Yaponiya və digər sunami ölkələrində olduğu kimi acınacaqlı durumla qarşılaşır. Artıq Bakıda yağan yağışın fəsadı o yerə çatıb ki, hər dəfə bir insan itkisi ilə də üzləşirik. Əsasən sovet dövründə salınan yol və zolaqlar, o dövrün əhali və nəqliyyat sayı üçün hesablanan hərəkət cədvəli artıq bu gün əsl faciə səbəbinə çevrilib. Əlbəttə, o zaman bu şəhərin infrastrukturunu həmin illərə görə quranları lənətləmirik. Günah onlardan sonra gələnlərdədir. Hər dəfə yağış yağıb yerimək olmayanda bu şəhərin infrastrukturu, kanalizasiya sistemi üçün hər il ayrılan on milyonları ciblərinə dürtənləri LƏNƏTLƏYİRİK. Amma gücümüz də təkcə elə o lənətləməyə yetir, başqa heç nə. Həmin milyonları cibişdanına dolduranların bir qismi artıq torpaq altındadır, qalanları da kənarda novruz xonçası kimi yığdıqlarını bala-bala yeməklə məşğuldurlar.

Bəli, 1960-70 illərin infrastrukturunu son 40-50 ildə yeniləməməyin cəzasıdır bu baş verənlər. Ötən əsrin 60-70-ci illərində Bakıda cəmi 1 milyondan bir qədər artıq insan yaşayırdısa, bu gün internet əsrinin Bakısında faktiki əhali sayı azı 3-4 milyon nəfəri keçib. Bölgələrdəki işsizlik ucbatından yeni iş yerləri axtarmaq, daha çox qazanmaq və sosial problemlərin altında əzilməmək üçün bütün bölgələrdən Bakıya əhali axını hər gün artır. "Səlib yürüşü" kimi əhali Bakıya axışıb gəlir. Yerlərdə dolanışıq səviyyəsində qazanc yerlərinin olmaması, bəzi yerli məmurların bürokratik və rüşvətxor əməlləri ucbatından yerli istehsal və sahibkarlığın havada qalması əhalini yaşamaq arzusu ilə Bakıya toplaşan əhali sıxlığı və tıxaclar paytaxtadakı problemlərin əsas səbəbi ola bilməz. Çünki bütün dünyada urbanizasiya problemi sürətlənib. Bu gün Azərbaycanda da bu proses gedir. Şəhərlərdə əhali sayının artımı tıxaclara səbəb olmamalıdır. Bakıdan qat-qat əhali sayı çox olar şəhərlər var. Amma orada şəhər nəqliyyat infrastrukturu elə qurulub ki, hər şey normasında, saat kimi işləyir. Əsas da ictimai nəqliyyat çoxşaxəlidir. Bakıda isə ümid avtobuslaradır. Onlar tıxacda qalan kimi, ictimai nəqliyyatın işi iflic olur, sərnişinlər yollarda qalır. Bakı şəhərində tramvay xəttinin ləğv olunması bu gün tıxaclara səbəb olan əsas amillərdəndir.

**Tramvay-trolleybus xətlərinin sökülüb məhv edilməsi Bakıya qarşı ən böyük xəyanət oldu!**

Trolleybus, Tramvay... Bir vaxtlar Bakının gözəlliyi sayılan bu iki nəqliyyat vasitəsini 2000-ci il girən kimi söküb atdılar kənara. Dəmirlərini də İran bazarlarında "əritdilər". Açıq deyəcəm: Tramvay-trolleybus xətlərinin sökülüb məhv edilməsi Bakıya qarşı ən böyük xəyanət oldu! Bakıda yağış yağan kimi əcəl təri tökməyimizin daha tutarlı səbəbləri var.

Yuxarıda da qeyd etdiyim kimi, kanalizasiya xətlərinin bərbad gündə olması Bakının bərbad günə qalmasının əsas problemidir. Min dəfə təəssüf olsun ki, bu başıbəlalı şəhərə neçə-neçə merlər gəlib getdisə də, heç biri bu şəhərin ən böyük dərdinə əlac olmadılar. Axı bu necə ola bilər ki, hər il büdcədən Bakının infrastrukturu üçün ayrılan vəsaitlərin heç olmasa cüzi hissəsi bu problemin həllinə yönəlməsin? Elə yağışlı ölkələr var ki, avtomobillərin hərəkəti adi günlərdəki kimi davam edir. Bakıda isə yağışın yarım saat intensiv yağması kifayətdir ki, küçələrdə su dizə çıxsın. Bəli, bu problem həll olunmasa Bakı daha dəhşətli iztirablarla üz-üzə qalacaq. Ona görə də Bakının kanalizasiya sistemi yenidən qurulmalıdır. Bəs Bakının kanalizasiya sistemlərini son illər bərbad günə qoyanlar kimlərdir? Özbaşına 15-20 mərtəbəli "novostroykalar" ucaldan işbazlar! Mütəxəssislər də etiraf edirlər ki, belə acınacaqlı vəziyyətin yaranması şəhərdəki kanalizasiya sisteminin tikinti şirkətləri tərəfindən bərbad hala salınması ilə bağlıdır. Belə ki, əksər hissələrdə kanalizasiya sistemi normadan bir neçə dəfə artıq yüklənir. Bəzi yerlərdə isə ümumi kollektora çıxış belə olmadığı iddia olunur.

# Azərbaycan dövlətinin xilaskarı və qurucusu



*"Azərbaycan dövləti demokratik bir cəmiyyət yaradıbdır. Bu demokratik cəmiyyətdə demokratiyanın tələb etdiyi bütün amillər mövcuddur: söz azadlığı, mətbuat azadlığı, insanın bütün azadlıqları, vicdan azadlığı, ayrı-ayrı siyasi təşkilatlar yaratmaq, partiyalar yaratmaq, tamamilə sərbəstlik - yəni demokratiyanın tələblərinə uyğun olan bütün amillər Azərbaycanda bu gün mövcuddur. Bəlkə də ölkəmizi bizimlə bərabər müstəqillik əldə etmiş başqa ölkələrlə müqayisədə, yəni Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrlə müqayisə edəndə burada bu azadlıqlar daha da çox yer alıbdır.*

Əgər elə olmasaydı Azərbaycanda bu qədər siyasi partiya olmazdı, Azərbaycanda mətbuat bu qədər azad olmazdı, qəzetlər bu sayda olmazdı və qəzetlərə, mətbuata bu qədər azadlıq verilməzdi. Bunlar hamısı demokratiyanın Azərbaycanda mövcud olmasıdır", - deyə Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev çıxışlarının birində bildirmişdir. Düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı dünya birliyinin fəal üzvünə çevirən, bugünkü uğurlarımız üçün möhkəm baza yaradan Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının tarxində böyük rolu vardır. Onun hər addımı ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğur səhifələrini yazıb. Onun ideyaları hər bir azərbaycanlı üçün dəyərlidir. Böyük Şəxsiyyət bütün varlığı ilə sevdiyi Azərbaycanı, xalqını, onun dövlətçilik tarixini çox çətin sınaq və imtahanlardan çıxarıb.

## HƏR BİR AZƏRBAYCANLI ÜÇÜN DƏYƏRLİ İDEYALAR

Ümummilli Liderin siyasi zəkasının məhsulu olan qüdrətli Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sisteminin formalaşmasına nail olunub. Müasir Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış, elm, təhsil və mədəniyyətin inkişafı, məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın qazandığı böyük uğurlar, məhz Ulu Öndər Heydər Əliyev dühasının bəhrəsidir. Ümummilli Lider Heydər Əliyevin qətiyyəti və uzaqgörənliyi sayəsində Azərbaycanda ictimai-siyasi sabitliyə nail olunub, dövlətçiliyimiz məhv olmaq təhlükəsindən xilas edilib. Düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı dünya birliyinin fəal üzvünə çevirən, bugünki uğurlarımız üçün möhkəm baza yaradan Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının tarxində böyük rolu vardır. Onun hər addımı ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğur səhifələrini yazıb. Onun ideyaları hər bir azərbaycanlı üçün dəyərlidir. Böyük Şəxsiyyət bütün varlığı ilə sevdiyi Azərbaycanı, xalqını, onun dövlətçilik tarixini çox çətin sınaq və imtahanlardan çıxarıb.

Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etdiyi dövrdən etibarən, Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialının ölkənin gələcək inkişafına və xalqın rifahının yüksəlməsinə yönəldilməsi prosesinə başlanılıb. Ulu Öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi dövr ərzində respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq olub. Kənd təsərrüfatının və sənayenin, iqtisadiyyatın digər sahələrinin inkişafında, sosial məsələlərin həllində və əhalinin rifah halının yaxşılaşdırılmasında böyük irəliləyiş əldə edilib. Dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlandı və dərhal onların icrasına başlanıldı. Böyük Siyasətçi iqtisadiyyat, o cümlədən, kənd təsərrüfatı və mədəniyyətin müxtəlif sahələrində vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist Partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə çevirmək yolunda qətiyyətlə, yorulmadan çalışırdı. Qısa bir zaman məsafəsində bütövlükdə, respublika ərazisində yüzlərlə zavod, fabrik və istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi.

## YENİ DÖVRÜN TƏLƏBLƏRİNƏ UYĞUN İSLAHATLAR

1990-cı illərin əvvəlləri Azərbaycan dövrünün ağır günlərini yaşayırdı. Bir tərəfdən, separatçı qüvvələr və onların himayədarları ölkəmizi parçalayır, digər tərəfdən, iqtisadiyyatımız tamamilə dağılmışdır. Şəhər və kəndlərimiz bir-birinin ardınca işğal edilirdi. Müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan və bir-birini əvəz edən səriştəsiz siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırmışdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Xalqı bütövlükdə, uçuruma sürükləyən məqamlar istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəiflətməyə başlamışdı. İqtisadiyyatımız böhranlı vəziyyətə gəlib çatmış, işsizlik, demək olar ki, kütləvi hal almışdı. Bunun nəticəsi olaraq əhalinin yaşayış səviyyəsi minimum səviyyəyə çatmışdı. Ölkənin ictimai-siyasi həyatında anarxiya, xaos hökm sürürdü. 15 İyun 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəni düçar olduğu vəziyyətdən çıxardı. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı. Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının bərqərar olması fundamental mahiyyət kəsb etməyə başladı.

15 iyun 1993-cü il tarixində baş verən hadisə - Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil həyatının yeni səhifələrini yazdı. Tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu və dövlətçiliyimizi yox olmaq təhlükəsindən qurtardı. Ulu Öndər Heydər Əliyev respublikanın müstəqilliyini qorudu, ölkədə tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Müstəqil Azərbaycanın Qurucusu Heydər Əliyev ən yeni tariximizin çətin anlarından şərəflə çıxaraq, müstəqilliyimizin gerçəkləşməsində və ictimai-siyasi həyatımızın bütün istiqamətləri üzrə inkişafın təmin edilməsində qarant rolunu oynadı. Ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi və tənəzzülə uğramasının qarşısının alınması, yeni dövrün tələblərinə uyğun tərzdə islahatların həyata keçirilməsi önəmli idi ki, Heydər Əliyev də müdrikcəsinə dövrün irəli sürdüyü bu tələbləri müstəqil Azərbaycan dövlətində ardıcıl şəkildə həyata keçirdi və ölkəmizdə yeni iqtisadi mühit, azad bazar iqtisadiyyatı formalaşdı. Sonrakı dövrlərdə Azərbaycan vətəndaşlarının sosial durumunun yaxşılaşdırılması ilə bərabər, dövlət quruculuğu siyasətinin ardıcıl surətdə həyata keçirilməsi, Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artırılması istiqamətində addımlar atıldı.

## MÜTƏRƏQQİ KONSTİTUSİYAMIZ

Ulu Öndərin Azərbaycan dövlətçiliyi qarşısında tarixi xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılması oldu. Belə ki, 1995-ci ildə qəbul olunmuş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını formalaşdırdı. Dahi Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu ali Sənəd müstəqil Azərbaycan Konstitusiyası kimi tarixə yazıldı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, bilavasitə təşəbbüsü və müəllifliyi ilə hazırlanmış ilk milli Konstitusiya çağdaş dünyanın ən mütərəqqi konstitusiyalarından biri olmaqla, suveren dövlətçilik tariximizdə yeni mərhələ açdı, dövlət quruculuğu, iqtisadiyyat və ictimai-siyasi həyatda dinamik inkişafa güclü təkan verdi. 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, ümumxalq səsverməsi - referendum yolu ilə özünün ilk milli Konstitusiyasını qəbul edərək, Ana Qanunumuzda qanunçuluğu ideya və dəyərlər sistemi kimi təsbit etmiş oldu. Qeyd edək ki, Milli Məclisin 1995-ci il 2 may tarixli qərarı ilə Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın tərkibi təsdiq olundu. Yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın ilk iclası 1995-ci il iyunun 5-də keçirildi. Həmin iclasda çıxış edən Ulu Öndər Heydər Əliyev qeyd edib ki, müstəqil Azərbaycanın ilk Konstitusiya layihəsinin hazırlanması olduqca mühüm bir tarixi hadisədir: "Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik". Konstitusiyanın qəbulundan sonra ölkəmizdə hüquqi dövlət quruculuğu və insan haqlarının təmini sahəsində əhəmiyyətli dəyişikliklər baş verdi. 1996-cı il fevralın 6-da Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə noyabrın 12-i Azərbaycan Respublikası Konstitusiya Günü elan edildi. Hər il 12 noyabr - Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunduğu gün ölkəmizdə rəsmi dövlət bayramı kimi qeyd olunur.

İlk ali Qanunu qəbul etməklə, Azərbaycan xalqı bütün cəmiyyətin və hər kəsin firavanlığını, azadlığını və təhlükəsizliyinin bərqərar edilməsinə nail oldu. Müstəqil dövlətin ilk Konstitusiyası, eyni zamanda, xalqımızın dünyəvi, milli-mənəvi prinsipləri rəhbər tutaraq, seçdiyi gələcək yolunun ifadəsi idi. 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət olan konstitusiyanın mühüm özəlliklərindən biri də vətəndaş hüquq və azadlıqlarına geniş yer ayrılması idi. 1996-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların inkişafının təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara qoşuldu. 1998-ci il fevralın 10-da Azərbaycanda ölüm hökmü ləğv edildi. Azərbaycan MDB məkanında və müsəlman dünyasında bu tarixi qərarı qəbul edən ilk dövlət idi. 14 iyul 1998-ci il tarixdə Azərbaycanda konstitusion müstəvinin ən vacib institutlarından biri - Konstitusiya Məhkəməsi fəaliyyətə başladı. 1998-ci il avqustun 6-da Ümummilli Lider Heydər Əliyev konstitusion hüququn təməl prinsiplərindən olan söz azadlığının təminatı ilə bağlı mühüm bir qərara imza atdı. Belə ki, mətbuat üzərində senzura tamamilə ləğv edildi. 1999-cu il dekabrın 12-də Konstitusiyada təsbit olunmuş keçid müddəalarından daha birinə əməl olundu - ölkədə ilk bələdiyyə seçkiləri keçirildi, yerli özünüidarə institutu fəaliyyətə başladı. 2002-ci ildə İnsan Hüquqları üzrə Müvəkkil - Ombudsman Təsisatı fəaliyyətə başladı.

## QURUCU VƏ XİLASKAR DÖVLƏT XADİMİ

2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Bu gün Azərbaycanı 1990-cı illərin əvvəli ilə müqayisə etmək mümkün deyil. Əgər Azərbaycanın müstəqilliyinin ilk illərində baş verən hadisələrin qarşısı alınmasaydı və Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı olmasa idi, əlbəttə ki, bu günün Azərbaycan reallıqlarından belə söhbət açıla bilməzdik. Bu gün müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər keçirilir. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Azərbaycanda dövlət quruculuğu, iqtisadi dirçəliş, sosial-siyasi həyatda tərəqqi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalqın məhəbbətini qazanmış Ümummilli Lider Heydər Əliyevin adı Azərbaycan tarixinə qurucu və xilaskar dövlət xadimi kimi əbədi həkk olunub.

***Zümrüd BAYRAMOVA***

# Sağlam gələcək eko-məhsullarla təmin olunacaq





***Ekoloji cəhətdən təmiz məhsullar geniş mənası olan bir termindir. Əgər məhsul təbiətə, ətraf mühitə, insan sağlamlığına və ya heyvan sağlamlığına zərər vermirsə və təkrar emal oluna bilən xüsusiyyətlərə malikdirsə, qablaşdırması təbiətdə asanlıqla torpağa qarışan materialdandırsa ekoloji cəhətdən təmizdir. Buna görə də bu məhsullar təbii maddələrdən hazırlanır.***

Ekoloji cəhətdən təmiz məhsul canlılara zərərli olmayan məhsullardır. Məhsulların qablaşdırmasına əlavə edilən bu etiket istehlakçıların rahat seçiminə kömək edir. Lakin hər məhsula bu etiketi əlavə etmək olmur, bunun üçün ətraf mühitə səmərəliliyini ölçmək, səlahiyyətli orqan tərəfindən testlər edilməlidir. Brendin məhsulları bu testlərdən keçərsə, "ekoloji təmiz" etiketini ala bilər.

Tullantıların istehsalını azaldan və təkrar emal edilə bilən məhsullar ekoloji cəhətdən təmiz məhsullar kimi tanınır. Belə məhsullar təbiətə zərər vermir. Onlar planetimizin enerjisini və təbii ehtiyatlarını qoruyurlar. Ekosistemə mənfi təsir göstərməyən ekoloji cəhətdən təmiz məhsullar planetimizi qorumaq üçün idealdır. Ekoloji cəhətdən təmiz brendlər həm dünyamızın qoruyucuları, həm də etik dəyərlərin müdafiəçiləridir.

Ekoloji cəhətdən təmiz həyat günümüzün ən çox müzakirə edilən məsələsidir. Qlobal istiləşmə və ətraf mühitin çirklənməsinin artması nəticəsində insanlar dünyanın təhlükə altında olmasının fərqində deyil. Ekoloji məhsullar ekoloji cəhətdən təmiz həyat tərzi yaşamaq istəyən insanlar üçün əvəzolunmazdır. Ətraf mühitə uyğun, təbiətlə təmasda olaraq təbii həyat tərzi keçirmək istəyirsinizsə, gündəlik həyat vərdişlərinizi dəyişə bilərsiniz. Kiçik vərdişlərinizi dəyişdirərək ekoloji cəhətdən təmiz bir həyat yaşaya bilərsiniz.

Ekoloji təmiz məhsul həm qida, həm geyim, həm də digər istehlak məhsulları ola bilər. Ekoloji geyim məhsulları ətraf mühiti çirkləndirməyən və təkrar emal edilə bilən məhsullardır. İstehlakçıların sağlamlığını qorumaq üçün təbii parçalardan və təbii materiallardan hazırlanmış geyimlərin ətraf mühitə mənfi təsiri yoxdur. Müasir moda sənayesində müxtəlif cür dizayn edilmiş ekoloji təmiz məhsullar fərqli xüsusiyyətlərə malikdir. Ekoloji cəhətdən təmiz geyimlər pambıq, bambuk, banan ipəyi, spinnova, çətənə lifləri, ipək, ananas lifləri və yun kimi materiallardan hazırlanır. Ekoloji cəhətdən təmiz paltar istehsal edərkən, tərkibində zərərli kimyəvi maddələr istifadə edilmir.

Qida rejimimizi dəyişməklə də təbiəti qoruya bilərik. Məsələn, əti rasionumuzdan çıxarmaqla və ya azaltmaqla. Çünki ət istehlakı hər il milyonlarla heyvanın tələf olmasına səbəb olur. Ekoloji cəhətdən təmiz həyat tərzini mənimsəmək üçün ət istehlakını tamamilə dayandırmaq olar, yaxud müəyyən qədər azaltmaq da mümkündür. Birləşmiş Millətlər Təşkilatının araşdırmasına görə, insanların təbiətə buraxdığı karbon qazı və zərərli istixana qazlarının 9 faizini heyvandarlıq təsərrüfatları yaradır. Üstəlik, ət istehlakının azaldılması sizin sağlam olmağınıza və pula qənaət etməyinizə kömək edəcək. Ət əvəzinə göbələk, soya, paxlalılar, yaşıl mərcimək, yumurta, qoz-fındıq, badımcan və yarma istehlak edə bilərsiniz, bu ərzaqların tərkibi ətin tərkibi ilə eyni olmaqla yanaşı daha çox qida dəyəri ehtiva edir.

Plastik torbalar və plastik qablaşdırma kimi məhsulların ətraf mühitə zərərləri barədə çox yazılır. Araşdırmalara görə, plastikin əriyərək təbiətdə yox olması üçün 1000 il vaxt lazımdır. Bu qədər uzun müddət təbiətdə qalan və ətraf mühitə zərər verən bu zəhərli maddələrdən heç vaxt istifadə edilməməlidir. Plastik torbalar və plastik qablaşdırma yerinə kətan çantalar və ya parça alış-veriş çantalarından istifadə edə bilərsiniz.Marketlərin sellofan torbaları pullu etməsi, daha sonra qulpsuz paketlərə keçid də təbiəti qorumaq məsdəi daşıyır. Çünki şəffaf torbaların pulsuz olması bir çox alıcıda arxayınlıq yaradır və ehtiyacı olduğundan daha çox istehlak edir. Lakin qulpsuz olması istifadəni məhdudlaşdırdığı üçün istehlakı da nisbətən azalır, beləcə ekologiya üçün təhlükəsi də minimuma enmiş olur.

Hər gün işə, məktəbə getmək üçün avtomobildən istifadə etmək yerinə piyada, yaxud da ictimai nəqliyyatla getmək də təbiəti qorumaq deməkdir. Qısa məsafələrə piyada və ya velosipedlə getmək karbon istehsalını azaltmağa xidmət edir. Tıxacın mütəmadi müşahidə edildiyi Bakı kimi bir şəhərdə bu qərarı verməklə həm öz sağlamlığınızı, həm planetimizi, həm də büdcənizi qorumuş olursunuz.

Evdə enerji səmərəliliyini artırmaq üçün də müəyyən tədbirlər görmək olar. Bərpaolunmayan enerji mənbələrini lazım olduğundan çox istismar etməmək üçün istifadə etmədiyiniz cihazları söndürün. Paltaryuyan, qabyuyan maşınlar, işıqlandırma elementləri və kondisionerlər alarkən onların A +++ kateqoriyalı olmasına əmin olun. Enerjiyə qənaət edən cihazlar bahalı olsa da, elektrik enerjisinə qənaət etmə xüsusiyyətinə görə daha sərfəlidir. Daha davamlı və ekoloji cəhətdən təmiz cihazlar enerji və suya qənaət edir və beləcə ətraf mühitin qorunmasına siz də kömək etmiş olursunuz.

Bundan əlavə, evinizi izolyasiya etsəniz, enerjiyə qənaət edə, dolayısı ilə təbiətə fayda vermiş olarsınız. İzolyasiya edilsə eviniz ideal temperaturda qala bilər və yolla ekoloji cəhətdən təmiz bir həyat tərzi keçirə bilərsiniz. Əgər maddi imkanınız və fərdi eviniz varsa, evin damına günəş panelləri də quraşdıra bilərsiniz. Beləliklə, elektrik enerjisi üçün pul xərcləməyəcək, günəş enerjisindən faydalana bilərsiniz.

***Lalə Mehralı***





# Boşanmış qadına cəmiyyət necə yanaşır?

*Ahəng psixologiya, reabilitasiya, inkişaf mərkəzinin rəhbəri Vüsalə Əmiraslanovanın SİA-ya müsahibəsini təqdim edirik:*




**- Son günlər aktual məsələlərdən biri də boşanmaların sayının artmasıdır. İstərdim buna psixoloji aspektdən yanaşaq. Maddiyyat, yoxsa başqa amillər burada rol oynayır?**

- Əvvəlki statistikalara baxanda biz evlənənlərin sayındansa, boşananların sayının artdığını görürük. Düzdür, bəzən karantinə qədərki dövr və karantindən sonrakı dövrü nəzərə alırıq. Çox vaxt deyirdilər ki, karantinə qədər fərqli idi, karantindən sonra toy olmadı. "İnsanların arzuları ürəklərində qaldı" kimi fikirlər var idi. Amma mən bunlarla tam razı deyiləm. Düşünürəm ki, əvvəlki problemlər yenə də var. Sadəcə bir az daha da şiddətlənib. İnsanlarda aqressiya da artıb. Bəzən özgüvən deyəndə özündənrazılıqla səhv salırlar. Tələbkarlıq artıb. Bəzən xarici ölkələrin motivasiya videolarına baxıram. Görürəm ki, ancaq özünü düşünməyin təbliğatı gedir. Amma bunlar Azərbaycan mentalitetinə, dinimizə uyğun deyil. Artıq 16 ildir ki, psixoloq kimi fəaliyyət göstərirəm və cütlük terapistiyəm. Ona görə də rahatlıqla deyə bilirəm ki, kimin tərəfindən tanış olunsa belə, cütlük münasibəti önəmlidir. Biz yaxınlar vasitəsilə tanış olub düşünürük ki, mən bu insandan ayrılsam, onların xətrinə dəyər. Yaxud da, nişanım qayıtsa necə olar? Özlərini incidib sosial qınağı orada görürlər. Düşünmürlər ki, bəs ayrılanda necə olacaq? Niyə ayrılırıq, niyə boşanırıq? Birincisi, cütlük ola bilmədiyimizə görə, ikincisi, valideynlərin, qohumların müdaxiləsi çoxdur. Bir oğlan ailədə çətinlik, yavaş-yavaş qalxma prosesini görməyibsə, özü işləyib öz xərclərini ödəyə bilmirsə, ikinci adamı necə saxlasın? Amma qadınların saxlanılması söhbətinə görə bəzən qadınlar tərəfindən bəyənilmir. Amma əsas qüvvə kişidə olur. Qadın daha çox qazananda da kişini əzməyə çalışır. O zaman ailə dağılır. Səbəblər çoxdur. Düşünürəm ki, bir-birini anlamamaq, əsas da kamilləşməmək, kənar müdaxilə, maddiyyat boşanma səbəbləridir.

**- Boşanmış qadına cəmiyyət necə yanaşır?**

- Boşanmış qadın Azərbaycan cəmiyyəti üçün özünə görə ağır bir yükdür. Qadın travma yaşayır. Hamı onun üzərinə gəlməyə çalışır, incidirlər, suallar verirlər. Əsas da bu cümləleri eşidir: "Yoldaşın içmirsə, çəkmirsə, döymürsə, niyə boşandın?" Heç kim soruşmur ki, bu adam nə hiss edir? Boşanma çox dərin prosesdir. Bir psixoloq kimi həmişə deyirəm ki, boşanma hər zaman olur, ondan qorxmayın. Boşanana qədər "niyə boşanıram?" sualını özünüzə verin. Boşanandan sonrakı həyatı təsvir edək. Çox təəssüflər olsun ki, Azərbaycan cəmiyyətində



boşanan qadına məsləhət verənlər çox olur. Mən həmişə qadınlara onu deyirəm ki, öz əxlaqınıza dəyər verirsinizsə, özünüzdən əminsinizsə, bu adamla yaşamaq, həqiqətən də, alınmırsa, o zaman qərar verin. Bəzən boşanmaq övladınız üçün lazım olur. Təəssüflər olsun ki, kənar müdaxilələr elə bilir ki, yaxşılıq edir, amma yaxşılıq etmir. Pis tərəfə yönləndirirlər. Cəmiyyətdə ailə dağıdan qadınlara çevrilirlər. Cəmiyyətdə çox mənfi məqamlar var. Cəmiyyət qəbul etməsə də, birinci özünüz özünüzü qəbul etməlisiniz. Əgər dayana bilməyəcəksinizsə, o zaman boşanmayın.



**- Uzunömürlü ailələr niyə dağılır? Bunun kökündə nə dayanır?**

- Səbəblər müxtəlifdir. Bəzən basdırılmış duyğular, maddi, boşana bilməmə səbəbləri, hədə-qorxular burada rol oynayır. Əgər atanın imkanı varsa, hədə-qorxu gəlir ki, uşaqlara baxmayacaq. Halbuki, bu, qanun çərçivəsində mümkün deyil. Qadınların bu barədə maariflənmələri lazımdır. Xəyanət məsələsi üstündə də çox gec ayrılan ailələr görmüşəm. Qadın sevəndə net sevir və bilir ki, nəyə görə sevir. Qadınlara deyirəm ki, nə üçün sevirsənsə, onun üçün də ayrılırsan. Məsələn, yoldaşının mərhəmətinə görə sevirsən, ayrılanda başqalarına çox mərhəmətlidir, deyə də ayrılırsan. Bəzən görürəm ki, qadınlar bir neçə xəyanəti bağışlayırlar, amma axırıncını bağışlaya bilmirlər. Hətta bir xanım mənə demişdi ki, gündə bir xanımla görsəm, mənə təsir etməz, amma illərlə bir xanımın yanındadırsa, deməli, məni sevmir. Bəzən qadına deyirlər ki, uşaqlar böyüsün, yerbəyer olsun, sonra ayrılarsan. Yenə kənar müdaxilə var. Özünün cəsarətsizliyi, ailəsinin arxasında dayanmaması da səbəblərdəndir. Həm də ailələr kişi evə gələndə qadının deyinməsi, üzünün ifadəsi, tələsməyinə görə də dağılır.

**- Niyə bəzi gənclərimiz evlilikdən qorxur. Niyə evlənmədiyi haqqında sual verəndə də deyirlər ki, yaxşı qız tapmayıblar. Bu yaxşı qız anlayışı nədir?**

- Biz gərək buna həm xanımlar, həm də bəylər tərəfdən baxaq. Əksər xanımlar "daha yaxşısı olsun, kariyera qurum" düşüncəsi ilə ailə qurmurlar. Son araşdırmama görə isə xanımlar istədiyi ixtisasa daxil ola bilməyəndə yenidən oxumaq istəyir, oxuduqdan sonra da baxır ki, artıq gecdir. Ailənin təsiri ilə peşəsini düzgün seçə bilmir. Ona görə də, özünü tapmır, belə də davam edir. İkinci əsas məqam isə həm kişilərə, həm də qadınlara aiddir. Kənardan eşitdikləri boşanma səbəbləri, xəyanət, qaynana-gəlin münasibətləri buraya aiddir. Regionlar məsələsi bu dəqiqə aktivdir, baxır, kim ilə, hara ilə evlənirsən. Bir də oğlanlar üçün ayrı evin olması məsələsidir. Oğlanlar ev aldıqdan sonra evlənmək istəyir. Əgər hər iki tərəf kamildirsə, evliliyin ilk müddətində ayrı yaşamaqda fayda var. Onsuz da, övlad olduqdan son özümüz qaynananın evinə köç edirik.

**- Bəzən problemlərin kökündə qız anaları da dayanır. Bəzi qız anaları istəyir ki, qızı evləndikdən sonra kürəkəni də onlara köçsün. Bu nə dərəcədə düzgündür?**

- Niyə sevgili dönəmində oğlanla qız çox yaxşı yola gedirlər, amma nişanlanandan sonra dalaşmağa başlayırlar? Çünki ailələr üz-üzə gəlir. Kim böyüklərə hörmət etmədi, kim az gətirdi, kim çox gətirdi kimi söhbətlər gedir. Oğlanın xarakteri olmalıdır, heç kimə ana söhbəti etməyə icazə verməməlidir. İnsanın beş tələbatı içində sevib-sevilmək tələbatı insanı hər şeyə vadar edir. Oğlanlar var ki, tələbatını ödəyir, el dilində desək, "gözü doyur" ondan sonra kamil qadınla ailə qurmaq istəyir. Kamil deyəndə ona, anasına hörmət edən, dəyərlərinə dəyər verən, özünə hörmət edən və özgüvənli bir qadınla ailə qurmaq istəyir. Kişilər ona görə güclü qadınlardan qorxur ki, anası da güclü, gələn qadın da güclü olanda arada dava olur. Ona görə də, istəyirlər ki, hətta təhsilsiz qadın olsun ki, anasına dözsün. Burada oğlanın sözünün kəsəri olmalıdır, niyə qızla evləndiyini bilməlidir. Oğlan qızla niyə evlənmək səbəbini tapıbsa, artıq nə oğlan anası, nə də qız anası o ailəyə müdaxilə edə bilmir.

**Söylü Ağazadə**

# Qanun layihəsində yer alan əsas məqamlar açıqlanıb



***Milli Məclisdə "Diplomatik xidmət haqqında" yeni qanun layihəsi müzakirəyə çıxarılıb. SİA xəbər verir ki, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin dünən keçirilən birgə iclasının gündəliyinə daxil edilən qanun layihəsi 5 fəsil, 31 maddədən ibarətdir.***

Layihəyə əsasən, diplomatik xidməti orqanı əməkdaşlarının xidməti fəaliyyətinin qiymətləndirilməsi və diplomatik xidmət əməkdaşlarının attestasiyası həyata keçiriləcək. Xüsusi tapşırıqlar üzrə səfir, idarə rəisi vəzifələrində xidmət keçən diplomatik xidmət əməkdaşları istisna olmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vəzifəyə təyin edilən, müvafiq diplomatik və ya inzibati vəzifədə təqvim ilinin sonunadək azı altı ay daimi xidmət (qulluq) keçən diplomatik xidmət orqanı əməkdaşlarının xidməti fəaliyyəti hər təqvim ilinin sonunda qiymətləndirilir. Xidməti fəaliyyətin qiymətləndirilməsi bu Qanun nəzərə alınmaqla "Dövlət qulluğu haqqında" Qanun ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətlərinin qiymətləndirilməsi, habelə tutduğu vəzifəyə uyğun olduğunu müəyyən etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən diplomatik vəzifəyə təyin edilən diplomatik xidmət əməkdaşlarının (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən diplomatik rütbə verilən və xüsusi tapşırıqlar üzrə səfir, idarə rəisi vəzifələrində xidmət keçən diplomatik xidmət əməkdaşları istisna olmaqla) attestasiyası keçirilir. Yalnız müvafiq diplomatik vəzifədə azı bir il daimi xidmət keçən diplomatik xidmət əməkdaşları attestasiyadan keçirilə bilərlər. Diplomatik xidmət əməkdaşlarının attestasiyası beş ildə bir dəfədən çox olmayaraq keçirilir və bu zaman onların xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri nəzərə alınır.

Qeyd edilənlər nəzərə alınmaqla, diplomatik nümayəndəliklərdə və konsulluqlarda xidmət keçən diplomatik xidmət əməkdaşları rotasiya əsasında geri çağırıldıqdan sonra attestasiyadan keçirilirlər. Diplomatik xidmət əməkdaşlarının attestasiyası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.

Sənəd layihəsinə əsasən, ilk dəfə daimi diplomatik xidmətə qəbul olunan Azərbaycan Respublikasının vətəndaşı vəzifəsinin icrasına başlamazdan əvvəl aşağıdakı məzmunda and içir: "Azərbaycan dövlətinə və xalqına sədaqətlə xidmət göstərəcəyimə, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl edəcəyimə, dövlət sirrini və xidməti sirri qoruyacağıma, üzərimə düşən vəzifələri qərəzsiz, vicdanla və məsuliyyətlə yerinə yetirəcəyimə, hər zaman diplomatik xidmət əməkdaşı adını uca tutacağıma və Azərbaycan Respublikasını ləyaqətlə təmsil edəcəyimə and içirəm". And içən diplomatik xidmət əməkdaşı andının yazılı mətnini imzalayır və bu sənəd onun şəxsi işində saxlanılır.



# “Ataların qızlarının psixologiyasına təsiri çoxşaxəli və incədir”

***“Bəli, qızın taleyi və şəxsiyyət inkişafı, atasının onun həyatında oynadığı rol və münasibətlərinin xarakteri ilə ciddi şəkildə əlaqəli ola bilər”. Bu sözləri SİA-ya açıqlamasında Psixoloq Psixoterapevt Orxan Şəfizadə deyib. O bildirib ki, atalar qızların özünə güvənini, emosional sabitliyini və gələcəkdə quracağı münasibətləri formalaşdırmaqda mühüm rol oynayırlar: ”Bu təsir həm pozitiv, həm də neqativ ola bilər.***



## PSİXOLOQ İZAH ETDİ

Ataların qızlarının psixologiyasına təsiri çoxşaxəli və incədir. Bu təsir təkcə atanın necə davranmasından deyil, həm də qızın həyatındakı iştirakının keyfiyyətindən asılıdır. Gəlin bu təsiri daha detallı analiz edək:

**1. Sevgi və Dəstək Təminatı**



Pozitiv təsir: Sevən və dəstəkləyici ata, qızına öz dəyərini hiss etdirir. Məsələn, ata qızını uğurları üçün tərifləndikdə, qız öz bacarıqlarına daha çox inanır.

Negativ təsir: Əgər ata qızına vaxt ayırmırsa və ya onunla sərt davranırsa, qızda özünü sevilməz və dəyərsiz hiss etmək riski artır. Bu da gələcəkdə özünə inam problemi yarada bilər.

**2. Əlaqələrdə Model Rolunda Olan Ata**

Pozitiv model: Ata ailədə anaya hörmət və sevgi göstərərsə, qız bu davranışı münasibətlərdə norma kimi qəbul edəcək. Məsələn, ata qızının fikirlərini dinləyir və hörmətlə yanaşırsa, o, gələcəkdə qarşısındakı insandan eyni rəftarı gözləyəcək.

Negativ model: Əksinə, ata zorakı və ya laqeyd davranarsa, qız bu cür münasibəti normal qəbul edə bilər və öz şəxsi münasibətlərində də buna dözmək riski daşıyar.

**3. Emosional Sabitlik və Çətinliklərə Yanaşma**

Pozitiv təsir: Ata qızına çətin anlarda emosional dəstək verərsə, o, problemlərlə başa çıxmaqda daha güclü olur. Məsələn, ata qızına “Sən bunu bacaracaqsan, mən sənin yanındayam” kimi sözlər desə, qız özünü təhlükəsiz hiss edəcək.

Negativ təsir: Əgər ata qızını tənqid edir və ya hisslərini görməzdən gəlirsə, bu, onun emosional sabitliyini pozub, streslə mübarizədə çətinliklər yarada bilər.

**4. Təhlükəsizlik və Qoruma Hissi**

Pozitiv təsir: Ata qızını müdafiə edirsə, o, özünü cəmiyyət qarşısında güvənli hiss edir. Məsələn, məktəbdə problem yarananda atasının dəstəyini hiss edən qız daha özünə güvənir.

Negativ təsir: Ata qızını qorumaq əvəzinə təhqir edərsə və ya diqqətsiz olarsa, o, özünü tənha və müdafiəsiz hiss edəcək.

**5. Müstəqilliyin Dəstəklənməsi**

Pozitiv təsir: Ata qızının müstəqil düşüncəsini və qərar vermə bacarığını təşviq edərsə, o, öz ayaqları üstə durmağı öyrənir. Məsələn, ata qızının təhsil və ya karyera qərarlarını dəstəkləyirsə, bu, qızın həyatında irəliləyişlərə səbəb olur.

Negativ təsir: Ata qızının qərarlarına hörmət etmirsə və ya onu daim idarə etməyə çalışırsa, qızda müstəqillik qorxusu və qərar verməkdə çətinliklər yaranır.

**6. Ata ilə Dialoq Keyfiyyəti**

Pozitiv təsir: Müntəzəm dialoq və emosional ünsiyyət qızın öz hisslərini ifadə etməsinə kömək edir. Əgər ata qızını dinləyirsə, o, fikirlərinin vacib olduğunu dərk edir.

Negativ təsir: Əgər ata qızına vaxt ayırmırsa və ya onu dinləmirsə, bu, qızın öz hisslərini gizlətməsinə və daxili narahatlığa səbəb ola bilər.

**7. Uşaqlıq Travmalarının Təsiri**

Atanın rəftarı bəzən uzunmüddətli travmalara səbəb ola bilər. Məsələn: Tənqid və ya zorakılıq uşaqlıqda travma yaradaraq qızın öz dəyərinə mənfi təsir göstərə bilər. Sevgi və anlayışla yanaşma isə qızın öz potensialını tam şəkildə açmasına imkan yaradır”.

”Atalar, qızların emosional və psixoloji inkişafında əsas rol oynayırlar. Onların münasibətləri gələcəkdə qızın həyat seçimlərini, münasibətlərini və özünü dərk etmə formasını formalaşdırır. Sevgi dolu, diqqətli və dəstəkləyici ata modeli qızın sağlam və güclü şəxsiyyət kimi inkişaf etməsini təmin edir. Əks halda, bu münasibətlərin çatışmazlığı psixoloji və emosional yaralara səbəb ola bilər” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Azərbaycanda əmək müqavilələrinin sayı açıqlandı

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin iş yerlərinin rəsmiləşdirilməsi, əməkhaqqı fondunun “ağardılması” və şəffaflığın təmin edilməsi istiqamətində həyata keçirdiyi tədbirlərin nəticəsi olaraq, bağlanmış əmək müqavilələrinin sayı 2019-cu ilin əvvəli ilə müqayisədə 482 194 vahid artıb və bu il dekabrın 1-nə 1 884 109 olub. SİA bu barədə quruma istinadən xəbər verir.



Məlumata görə, qeyri-neft sektorunun özəl bölməsində həmin göstərici 450 212 vahid artaraq 990 134 təşkil edib. ”Təşviq əsaslı vergi siyasətinin əmək bazarına müsbət təsirləri davam edir”, - deyə məlumatda qeyd olunub.



Lalə Mehralı

# A bala, niyə evlənmirsən?

***Bineyi-qədimdən belə olub, subay insan görəndə “nə vaxt tərpənirsən?”, “niyə evlənmirsən?”, “başını nə vaxt bağlayaq?” kimi suallar veriblər. Kimisi maraqdan, kimisi də canı yandığından. İkincilər daha çoxdur. Ailəsi olmayanın ailəsi olsun istəyiblər, evi olmayana ev qurublar. Evlənmək sözü də buradan yaranıb – ailə quranlara kömək edib ev tikməklə, ev sahibi etməklə onları sözün həqiqi mənasında evli-eşikli ediblər.***

Evlənmək dövrümüzdə don dəyişib, transformasiya edib. İndi evlənmək olmur, ailə qurmaq olur. Evi olmayan necə evlənsin? Az maaşla necə baxsın ailəsinə kirayədə? Uçuq-sökük daxmaların aylıq ödənişi 300-400 manatdan başlayır, bu gənclər nə qədər maaş alsın ki, hər şeyə yetə bilsin? Gənclərin evlənməsinə şərait yaratmaq lazımdır, təşviq etmək şərtdir. Ölkədə doğum sayı azalıb, əhalidə yaşlı nəsil üstünlük təşkil etməyə başlayır, bunun nəticələri pis olacaq. Kim qoruyacaq vətəni? Kim icra edəcək peşələri?

Günü-gündən nikahların sayı azalır, bunun fonunda boşanmaların sayı sürətlə artır. Ölkədə bağlanan hər iki nikahdan biri boşanma ilə nəticələnir. Üstəlik, boşananların əksəriyyəti yenicə ailə quranlardır, 2-3 aylıq evliliklərdir. Əgər bir cəmiyyətdə boşanmaların sayı 50 faizi keçibsə, bu, artıq təhlükəli vəziyyətin göstəricisidir. Ona görə də ailələrə daha çox evli qalmağa, nikahı pozmamağa görə təşviqedici vədlər verilməlidir. Evi olmayanların güzəştli şərtlərlə ev alması asanlaşdırılmalıdır, 1 uşağı olanların dünyaya daha çox uşaq gətirmələrinə təşviq üçün sosial proqramlar işlənməlidir, uşaqpulu verilməlidir. Ailələr başa düşməlidir ki, uşaqların böyüməsində dövlət öz dəstəyini göstərəcək, nəsil artırmaqdan qorxmamalıdır.

Aliment məsələsindən yazmağa qorxuram. Dəhşətli vəziyyətdir. Elə bir mənzərə yaranıb ki, sanki ailələr aliment üçün dağılır, qadınlar “kim daha çox aliment ala bilər?” yarışına çıxıb sanki. İddia etmirəm ki belədir, amma mənzərə belə təsir bağışlayır. Alimentin dövlət büdcəsi hesabına verilməsini iddia edənlər vardı bir ara, təsəvvür edin, elə olarsa mənzərə necə olar? İndi hər iki ailədən biri dağılır, aliment dövlət büdcəsindən ödənsə, ümumiyyətlə, evli qalan olmaz.

Aliment yerinə uşaqpulu ödənsə, ailələrin sosial problemlərdən dağılma ehtimalı da bu qədər gündəmə gəlməz. Hətta başqa problemlərdən dağılan ailələr olanda da ilk ağıla gələn səbəb sosial problemlərdir. Ailəsini dolandıra bilməyənlər alimenti necə verəcək bəs? Əvvəl bir qazan asılırdısa ocağa, boşanmadan sonra iki qazan olur axı. Gəlir iki yerə bölünür, iki evin güzəranı o gəlirdən asılı olur.

Gənclərin iş problemi var, xüsusilə bölgələrdəki gənclər ciddi məşğuliyyət problemləri yaşayır. İş yoxdursa təminat da yoxdur, təminat yoxdursa ailə qurmaq da yoxdur, ailə qurulmursa nəsil artmır, nəsil artmırsa ölkənin əhalisi yenilənmir. Bizi ciddi demoqrafik faciə gözləyir, çünki əhali sayında artım yoxdur, inkişaf dinamikası qeydə alınmır. Çoxuşaqlılıq meyarlarında dəyişiklik edilməlidir buna görə. Ailələr cırtdan modelindən uzaqlaşmalıdır. Dövrümüzdə 6 uşaqlı ailə nadir olur, dolayısı ilə çoxuşaqlılıq müavinətini də az ailə alır. Ölkəmizdə təxminən 6 min ailə çoxuşaqlılıq müavinəti alır, meyarı dəyişib 3 və daha çox uşağa görə müavinət vermək lazımdır.

“Evlən” demək asandır, əsas məsələ evlənəndən sonra ailəyə baxa bilməkdir. Ailə qurmaq istəyənlərə dəstək göstərmək lazımdır, güzəştli mənzil, güzəştli kredit imkanları yaratmaq lazımdır ki, gənclər evlənməkdə özləri maraqlı olsun, ölkənin demoqrafik artımına dəstək versinlər. 1-2 aylıq yox, ömürlük ailə qurmaları üçün xüsusi proqramlar işlənməlidir. Belə davam edə bilməz, bu ip hardasa qırılacaq. Bəlkə də artıq qırılıb, biz özümüzə təsəlli veririk...





# Qarabağ və Şərqi Zəngəzurda yeniləşən, müasirləşən yol infrastrukturu

***Azərbaycanda yol-nəqliyyat infrastrukturu sürətlə inkişaf edir. Ölkədə avtomobil yollarının yenidən qurulması və tikintisi sahəsində genişmiqyaslı layihələr həyata keçirilir. Bakıdan ölkənin bütün bölgələrinə çıxışı təmin edən əsas avtomobil yolları genişləndirilir. Beynəlxalq əhəmiyyətli magistral yollar ölkənin tranzit potensialını artırır. Kənd yollarının yenidən qurulması regionların inteqrasiyasını gücləndirir və kənd təsərrüfatı məhsullarının bazarlara çatdırılmasını asanlaşdırır.***

Davos Ümumdünya İqtisadi Forumunun hesabatları da ölkədə nəqliyyat sahəsində həyata keçirilən dərin islahatların miqyasını və effektivliyini əyani şəkildə təsdiqləyir. Reytinqlərə əsasən, Azərbaycan avtomobil yollarının keyfiyyətinə görə dünya üzrə 24-27-ci yerləri bölüşür. Dəmir yollarının səmərəliliyinə görə 11-ci, hava nəqliyyatının səmərəliliyinə görə isə 12-ci pillədə qərarlaşıb. Bu nailiyyətlər Azərbaycanın regionda tranzit və logistika mərkəzi kimi önəmini artırır. Əldə olunan nailiyyətlər ölkəmizin müasir nəqliyyat infrastrukturu quruculuğuna verdiyi önəmi və qlobal nəqliyyat sisteminə inteqrasiyasını əks etdirir.

Respublikamızda yol layihələrinin icrası fasiləsiz şəkildə davam etdirilir. Bu gün azad olunmuş ərazilərdə Böyük Qayıdışı təmin etmək, davamlı iqtisadi inkişafa nail olmaq üçün yolların çəkilməsi əsas şərt kimi ortaya qoyulub. Bunun nəticəsidir ki, Qələbəmizin simvolu sayılan Zəfər yolunun tikintisi cəmi bir ilə başa çatdırılıb və yol artıq istifadədədir. Çəkilən yolların kateqoriyası əsasən birinci və ikinci dərəcəlidir. Təbii ki, o cür çətin dağlıq relyef şəraitində birinci və ikinci dərəcəli yolların çəkilməsi asan məsələ deyil. Bunun üçün ölkənin iqtisadiyyatı dayanıqlı olmalı, müvafiq qurumlar koordinasiyalı işləməyi bacarmalıdır. Bundan başqa, bu yollarda hərəkətin daha rahat və sadələşdirilmiş şəkildə təşkili üçün ağıllı yol infrastrukturu səviyyəsində qurulması da gözlənilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində bütün avtomobil yolları iri yaşayış məntəqələrindən kənar keçməklə layihələndirilir. Bu isə həmin yaşayış məntəqələrində məskunlaşacaq əhalinin, həm də yoldan istifadə edəcək vətəndaşların rahatlığı baxımından önəmli aspektlərdən biridir.

İşğaldan azad edilmiş ərazilərdə möhtəşəm yol şəbəkəsinin yaradılması keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmalarına, Qarabağın və Şərqi Zəngəzurun gələcək inkişaf planlarının həyata keçirilməsinə töhfədir. Bu ərazilərdə müasir yol infrastrukturu layihələrinin uğurla icrası Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması prosesində mühüm rol oynayır.

Bu çərçivədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 17 oktyabr 2021-ci ildə Füzuli rayonuna səfərləri zamanı təməli qoyulan Ağdam-Füzuli avtomobil yolunun inşası üzrə işlərin 82 %-ni icra edib.

Hazırda layihə boyu dəmir-beton tipli küveytlərin tikintisi və ayırıcı zolaqda yerləşdirilən dəmir-beton konstruksiyalı baryerlərin quraşdırılması işləri davam etdirilir. Bərdə-Ağdam avtomobil yolunun davamı olan Ağdam-Füzuli avtomobil yolu Ağdam, Ağcabədi, Füzuli rayonları ərazisindən keçir. Yolun inşası Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə rahat gediş-gəlişi təmin edəcək, yol boyu sosial-iqtisadi inkişafa müsbət təsir göstərəcək.



Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunun da yenidən qurulması davam etdirilir. Bu yol başlanğıcını Bərdə-Ağdam avtomobil yolundan götürür və ümumi uzunluğu 33,6 km təşkil edir. Sözügedən yolun ilk 11,7 km-lik hissəsi layihə üzrə II texniki dərəcəyə uyğun, qalan 21,9 km-lik hissəsi isə I texniki dərəcəyə uyğun yenidən qurulur. Torpaq yatağının eni müvafiq olaraq 15 və 26,5 metr təşkil edir, hərəkət zolaqlarının sayı isə 2 və 4 zolaqdır. Hər bir istiqamət üzrə çiyinlərin eni 3,75 metrdir.

Hazırda layihə boyu torpaq işləri görülür. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qruntun çıxarılması və əvəzində yararlı material verilərək normativ hündürlüyə çatdırılması, yolun genişləndirilərək profilə salınması işləri həyata keçirilməklə yol geyiminin tikintisi aparılır. Bundan başqa yol boyu müxtəlif diametrlərə malik düzbucaqlı və dairəvi suötürücü boruların eləcə də keçidlərin tikintisi işləri görülür. Layihədə nəzərdə tutulan 6707 metr uzunluğa malik istinad divarından 3494 metr hissəsi artıq inşa edilib. Qeyd edilən işlərə paralel olaraq 1 və 3 aşırımlı 5 körpünün inşası da sürətlə davam etdirilir. Körpülər yolun 1.6, 4.4, 7.2, 9.6 və 14-cü km-lik hissələrində inşa edilir. Layihə boyu ümumi fiziki tərəqqi 55 % təşkil edir.

Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolu bölgədə gediş-gəlişi asanlaşdıracaq, kənd təsərrüfatının, turizmin inkişafına əhəmiyyətli təsir göstərəcək. Yol Bərdə istiqamətindən Xankəndi, Şuşa və Laçın şəhərlərinə getmək istəyən sürücü və sərnişinlərin Ağdam şəhərinə daxil olmadan bu yoldan istifadə edərək sürətlə və təhlükəsiz hərəkətlərini davam etdirmələrinə imkan verəcək.

***Nigar Orucova***

# Bir var, "Başsız atlı", biri də var, "başsız" adam



## FELYETON

İşə gəlirəm, metrodayam, eskalatorla aşağı enirəm. Baxıram ey, qarşımda iki nəfər dayanıb, amma bunlardan birinin başı yoxdur. Maraq məni götürür. Hanı bunun başı? İşə düşmədik? Çantamı açıram, eynəyimi çıxarıram, sonra eynək siləni çıxarıram, eynəyi silirəm, qoyuram gözümə, baxıram ki, hə, qarşıda iki adam var, birinin başı o birinin sinəsindədir...

* * *

Axşamçağı işdən çıxıb gedirəm evə tərəf. Baxıram ki, qarşıda, parkın yanında, ağacın altında iki nəfər dayanıb. Yenə bunlardan birinin başı yoxdur. Bismillahir-rəhmanir-rəhim, niyə bu başsız adamlar mənim gözümə görünür? Əcəba, içimə cin-şeytan giribmi? Yoxsa dünən axşam baxdığım "Başsız atlı" filminin təsiri altındayam hələ... "Allah, özün kömək ol",- deyirəm və başlayıram "Ayətül-kürsü" oxumağa. Yaxınlaşanda görürəm ki, yox, cin-şeytan, film məsələsi deyil, həqiqətən də burada iki nəfər dayanıb, sadəcə, birinin başı o birinin qoynundadır, mən görməmişəm...

* * *

Hərdən yazı yazmaqdan ta başım xarab olur. Xarab olmasın, nə etsin axı. 30 ildir, yazıram. Mətləbə gəlim, hə, deyirəm buradan keçim dənizkənarı parka, bir az hava vursun məni, beynim açılsın. Gedirəm, baxıram ki, sahilboyu adamlar oturub dənizə tamaşa edirlər. Kor deyiləm, uzaqdan olsa da, aradabir görürəm ki, orda-burda iki nəfər əyləşib, amma bəs bunların başı birdir axı. Yaxınlaşıram, görürəm ki, doğru görmüşəm, burada əyləşən iki nəfərdir, lakin o birinin başı bu birinin qucağındadır.

Burada başsız adamları xeyli görürəm. O başda, bu başda, sahildə, skamyalarda, ağacların altında. Gördükcə də başlarının olduğunu, amma bu başların hərəsinin bir yerdə dayandığını da görürəm.

* * *

O günləri də marşrut avtobusdayam. Arxada oturmuşam. Gördüm qarşı tərəfdə bir yer boşalıb, qalxdım, gəldim ki, orada rahat əyləşim. Gələndə nə görsəm yaxşıdır, yer boş deyil, doludur. Mən arxadan görə bilməmişəm, çünki başlardan biri yenə yox idi. Yanındakının çiynində imiş. Mən qayıdıb yerimdə oturanadək biri də gəlib əyləşib yerimdə. Dedim, lənət sənə kor şeytan...

* * *

Keçən həftə də küçə ilə gedirəm. Qarşıda məndən bir az aralıda yenə də təxmin edirəm ki, bir nəfər deyil, iki nəfər gedir. Kor deyiləm, yaxınlaşdıqca, baxıram ki, axı bunun birinin başı yoxdur. Bir az da yaxınlaşıb yanlarından keçəndə görürəm ki, varmış, amma o birinin sinəsindəymiş. Deyirəm, bu vəziyyətdə necə də yeriyə bilirlər bu bəxtəvərlər...

Nə deyim, vallah, belədir.

***Mətanət Məmmədova***

ARAŞDIRMA

# Qonaq qarşılama MƏDƏNİYYƏTİ

*Elimizin adətinə görə əvvəllər evə qonaq gələndə günlərlə hazırlıq görülərdi. İndi isə əksəriyyət qonaq gələndə hazır yeməklərə üz tutur. Yəni, evin yaxınlığındakı daimi müştərisi olduğu restorana, yaxud yarımfabrikat məhsullar satılan kulinariya obyektinə zəng edib müxtəlif təamlar sifariş edirlər. Hətta son illər evə gələn qonağı birbaşa yemək üçün evin yaxınlığındakı restorana aparanlar da var. Bəs, niyə belədir? Nə dəyişdi? Evdə qonaq qarşılamaq adəti artıq sıradan çıxırmı?*







SİA mövzu ilə bağlı araşdırma aparıb.

"Qonaqlara hörmət etmək, birini qonaq etmək və qarşılamaq" türk adət-ənənəsi və anlayışı olaraq əsrlər boyu davam etdirilən, ilk olaraq Osmanlı dövründə, daha doğrusu Peyğəmbərimiz (s.ə.s) dövründən bəri davam edən mühüm xüsusiyyətlərimizdəndir.

Çoxumuz uşaqlıqdan bəri yaşadığımız evlərdən bilirik ki, "qonaq otağı" evdə ən xüsusi yerdir. Evin daha çox qonaqların üzünə açıq olan həmin xüsusi otağındakı mebellər böyük xərclə düzülüb. Həmişə təmizdir və həmişə qonaqları qəbul etməyə hazırdır və evin ən böyük otağıdır. Qonaq dəsmalları, qonaq başmaqları, qonaq boşqabları, hər şey qonaq üçün xüsusidir. Bunlar türk adət-ənənələrimizdə belə mühüm bir ənənənin rəmzləridir. Bu ənənənin mənşəyi İslama əsaslanır. Üstəlik, Türk-İslam Mədəniyyətində qonaqları qəbul edərkən onları dininə, rənginə, irqinə görə ayırmağa yer yoxdur.

**Sosial məsələlər üzrə ekspert Fatimə**



**Hacıbəyli:** "Əvvəllər milli adət-ənənələrimizə daha çox bağlı idik. Lakin bir müddətdir ki, bir çox adət-ənənələrimiz kimi qonaq qarşılamaq da artıq sıradan çıxır.

Əvvəl qonaq gələndə ona xüsusi hazırlıq görülərdi, ona yerdən yer açılardı və s. Amma indi qonağa qalmaq üçün oteldə yer





danışırıq ki, rahat olsun. Yeməkləri də çöldən sifariş edirik, ya da çox zaman onu səhər, günorta yaxud axşam yeməyinə restorana dəvət edirik.

Pandemiya zamanı isə insanlar sanki yenidən evə qayıtdı. Ailələr yaxınlaşdı, qonaqlıqlar gündəmə gəldi. Unutqan olduğumuz üçün 5-6 aydır yenə hər şey əvvələ döndü. İndi heç kim evdə yemək bişirmək istəmir. Maraqlıdır, əvvəl işləyən xanımlara evdə yemək hazırlamaq çətin olurdu. İndi isə hətta evdar qadınlar da evdə yemək bişirmək istəmir. Bu, mənim üçün böyük bir xaosdur. Məncə, qadının ilki onun mətbəxi olmalıdır. Bir qadın öz mətbəxi, səliqəsi ilə tanınmalıdır. Şəxsən mən çöldən yemək sifariş etmirəm, evdə bacardığım qədər yeməklərimi hazırlayıram. İş qadını olduğum üçün həftə sonları yarımfabrikatlar edirəm ki, həftəiçi çətinliyim olmasın. Bacardığım qədər adət-ənənəni yaşatmağa çalışıram. İnsanlar hər şeyin rahatına qaçmaq istəyirlər. Düşünürəm, bu da mənfi tendensiyadır.

Hətta yadımdadır ki, bizim əvvəl hər zaman soyuducumuzda əlavə çəkilmiş ət və toyuğumuz olurdu ki, birdən evə qəfl qonaq gələrdi. Dolabda bir qab qonaq üçün gizli konfet olardı. İndi heç kim bu adət-ənənəni yerinə yetirmir. Bir tərəfdən yaxşıdır bolluqdur, bir tərəfdən də qadınlar qadınlığını itirir. Amma mən düşünürəm ki, xoşbəxt qadınların öz mətbəxi olmalıdır.

## Qonaqları qarşılama etiketi

Ev sahibinin qonağa qarşı riayət etməli olduğu bir sıra qaydalar var.

**1.** Qonağı gülər üzlə qarşılamaq lazımdır: Əslində, İmam-ı Evzai buyurmuşdur: "Qonağı qonaq etmək, onunla mehriban olmaq və şirin danışmaq deməkdir. Qonağı qəbul etmək mükafatdır. İnsan qonağını nemət və qənimət hesab etməlidir". Peyğəmbərimiz "Allah-taala yaxşılıq dilədiyi zaman qonaqları hədiyyə olaraq göndərər" buyurmuşdur.

**2.** Qonağın rahatlığı təmin edilməlidir: Qonağın özünü yük kimi hiss etməsinin qarşısını almaq üçün onu son dərəcə rahat etdirmək lazımdır.

**3.** Yeməklər fərq edilmədən hazırlanmalıdır: Ləzzəti diqqətdən yayınmadan hazırlamaq vacibdir. Çünki qonaq bundan utanar və özünü narahat hiss edə bilər.

**4.** Yeməklər gecikdirilmədən süfrəyə verilməlidir: "Dərhal" ayəsində qeyd edildiyi kimi, yeməklər gecikdirilmədən hazırlanmalıdır.

**5.** Ən yaxşı yeməklər seçilməlidir: Evdə olanların ən yaxşısı qonağa verilməlidir.

**6.** Qonaq süfrəyə dəvət edilməlidir

**7.** Gedəndə qapıya qədər aparılmalıdır.

Ev sahibi kimi, qonağın da riayət etməli olduğu nəzakət qaydaları var.

**1.** Gələcəyinizdən xəbər vermək.

**2.** İcazəsiz və salam vermədən içəri daxil olmamaq. Kiçik bir hədiyyə gətirmək də uyğundur.

3. Qısamüddətli səfərləri yemək və istirahət vaxtları ilə üst-üstə salmayın.

**4.** Dəvət olunmadığın yerə getməmək.

**5.** Dəvət olunmayan birini özünüzlə aparmaq düzgün deyil. Çünki ev sahibinin hazırlığı ondan asılıdır. O, çətin vəziyyətdə ola bilər.

**6.** Vəziyyətə uyğun oturmaq. Müəyyən vaxtlarda (xəstəlik, dəfn və s.) çox oturmaq, narahatçılıq yaratmamaq lazımdır.

***Ayşən Vəli***

# Qərbin müharibə və sülh elçiləri



## Newsweek: Avropa xaosa sürüklənir

ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp Fransaya səfər etməklə Avropa ilə bağlı perspektiv planların anonsunu, proqnozunu verdi. Ukraynanı Rusiya ilə barışdırmaq istədiyini bildirdi və Rusiya lideri Vladimir Putinə mesaj göndərdi. Bu, yanvarda vəzifəyə başlayan Ağ Evin gələcək rəhbərinin Parisdə Fransa prezidenti Emmanuel Makron və Ukrayna rəhbəri Vladimir Zelenski ilə görüşündən az sonra baş verdi. Görüş Ukrayna lideri üçün sevindirici olmasa da, Rusiya tərəfi də mövcud sülh şəraitindən məmnun olmaya bilər. "Mən Vladimiri yaxşı tanıyıram. Onun hərəkət etmək vaxtı idi. Çin kömək edə bilər. Dünya gözləyir", - Tramp sosial şəbəkədə yazıb. Xatırladaq ki, şənbə günü Tramp və Zelenski Fransanın paytaxtında görüşmüşdü. Onların səfəri mühüm hadisəyə - Notr-Dam Katedralinin genişmiqyaslı yenidənqurmadan sonra açılışına təsadüf edirdi.

"Newsweek" yazır ki, Qərbin özü Rusiyanı sanksiyalarla və Ukraynaya dəstək verməklə "cəzalandırmağa" çalışaraq özünü xaosa sürükləyib. Qlobal Cənub qlobal maliyyə sisteminə nəzarəti ələ keçirib və Rusiyanın xüsusi hərbi əməliyyatına qarşı çıxan ölkələr onları bürümüş böhranın öhdəsindən gəlməyə çalışır. Mümkündür ki, Vladimir Putin "böhranın sizə təqdim etdiyi fürsəti heç vaxt əldən verməyin" məsələndən istifadə etməyi bacarır, çünki Fransa, Almaniya, Rumıniya və Cənubi Koreyada – məhz bu demokratiyalar onun Ukraynadakı xüsusi hərbi əməliyyatının qızğın əleyhdarları idilər.

Qərbin Rusiya iqtisadiyyatına tətbiq etdiyi cəza sanksiyaları Putinin Qlobal Cənubun qlobal maliyyə sistemini ələ keçirməsi istiqamətində hərəkətini sürətləndirdi və Rusiya prezidenti indi onun əməliyyatına ən kəskin şəkildə qarşı çıxan demokratiyaların qarışıqlığından kef edə bilər. Çətinliklər Kiyevə tətbiq etdiyi sanksiyalar və hərbi dəstək Putinin yolunda tikan kimi görünən Avropa İttifaqının ürəyini titrədir. Fransa prezidenti Emmanuel Makron Mişel Barnierin istefa verməsindən sonra yeni baş nazirin adını açıqlayacaq. Almaniyada koalisiya hökuməti Olaf Scholz-un maliyyə nazirini vəzifəsindən azad etməsindən sonra kanslerə fevral seçkilərindən əvvəl istefa verməsi üçün təzyiq göstərdikdən sonra dağılıb.

Avropadakı istənilən xaosu tamamilə Rusiya törətməsə belə, Putin üçün faydalıdır. Putin Rusiyasının hazırkı məqsədi Avropada nifaq salmaq və onu sarsıtmaqdır. Avropanın əsas dövlətlərindən birində hər hansı bir qeyri-sabitlik ümumi iqtisadi siyasət və xüsusilə də müdafiə məsələlərində Avropa razılaşmasına nail olmağı çətinləşdirəcək. Bu mənada belə bir hökumətin olmaması belə bir milli siyasətin formalaşdırılmasını xeyli çətinləşdirəcək. Makronun iyunda növbədənkənar parlament seçkiləri keçirmək barədə sürpriz qərarının parlamentdə parçalanma olduğunu üzə çıxarması parlamentin üç fraksiyaya bölünməsinə səbəb oldu: sol, sağ mərkəzçi və ifrat sağ.

Barnieri "aradan götürmək" üçün sosialistlər sol və ifrat sağçılarla birlikdə hərəkət etdilər. Sağçı lider Marin Le Penin rəhbərlik etdiyi partiyanın böhrandan necə çıxacağı bəlli deyil. Mümkündür ki, Makron bütün tərəfləri qane edəcək əvəzləyici tapmaqda çətinlik çəkə bilər.





### Avropada Ukraynaya dəstək və hakimiyyətdən narazılıq

Fransa və Almaniyada hökumətlərin dağılması indiki böhranların davamını vəd edir. Rusiya ilə proksi müharibənin bununla heç bir əlaqəsi olmadığını düşünmək olmaz. Bu ölkələrin problemləri Ukraynanı yenidən silahlandırmaq və dəstəkləmək xərcləri ilə daha da ağırlaşıb. Fransada Mişel Barnier hökumətinin devrilməsindən iki əsas dərs alınmalıdır. Birincisi odur ki, Avropanın kütləvi şəkildə yenidən silahlanması və ABŞ-ı Ukraynanın əsas himayədarı kimi əvəz etməsi, eyni zamanda səhiyyə və sosial təminatı indiki səviyyədə saxlaması ilə bağlı bütün söhbətlər tamamilə axmaqlıqdır. Sadəcə olaraq bunun üçün kifayət qədər pul yoxdur. İkincisi odur ki, elita və əsas siyasətçilərin populistlərin hakimiyyətə gəlməsinin qarşısını almaq üçün bütün cəhdləri uzunmüddətli perspektivdə məhvə məhkumdur və qısamüddətli perspektivdə bunlar sadəcə olaraq sonsuz siyasi böhranın və hakimiyyətin daha da pisləşən iflicinin reseptidir.

İki ölkə Avropa İttifaqında, Avropa iqtisadiyyatında, Avropa müdafiəsində mühüm rol oynayır və Avropanın strateji muxtariyyəti üçün ümid işığı buraxır: Fransa və Almaniya. Bir ay ərzində hər ikisi şişkin büdcə kəsirlərini azaltmaq uğrunda mübarizədə məğlub olan hökumətlərin dağılmasını yaşadılar. Hər iki halda maliyyə problemləri iqtisadi durğunluq və xəzinəyə ağrılı təzyiqlərin birləşməsi səbəbindən kəskin şəkildə pisləşdi - yenidən silahlanma və Ukraynaya dəstək üçün yeni xərclər sosial təminata əlavə edildi.

Hər iki halda maliyyə böhranı nəsillər boyu davamlı olaraq hakimiyyətdə olan əsas siyasi partiyaların məhvinə səbəb oldu. Bu fenomen tezliklə bütün Avropada müşahidə olunacaq. Bu tənəzzül bütün Avropada tüğyan edən Aİ və NATO-nun diktələrinə qarşı narazılıqdan qaynaqlanır. Fransada 2017 və 2022-ci illərdə keçirilən prezident seçkilərində Emmanuel Makron hər iki dəfə Marin Le Penin partiyasını məğlub edərək mərkəzçi partiyaların qalıqlarını öz rəhbərliyi altında böyük koalisiyada birləşdirdi. Mərkəzin bu qədər geniş koalisiyaları ilə bağlı problem ondadır ki, onlar müxalifəti ifrata varmaqdan başqa seçim qoymurlar - istər sağda, istərsə də solda.

Fransada iqtisadi durğunluq və azad bazarlara müqavimət və qənaət tədbirləri Makron blokunu bu ilin iyununda Avropa Parlamentinə keçirilən seçkilərdə sarsıdıcı məğlubiyyətə sürüklədi. Daha sonra Makron Fransa seçicilərinin yenidən Le Pen və radikal solun qorxusuna qalib gələcəyi və onları onu dəstəkləməyə məcbur edəcəyi ümidi ilə növbədənkənar parlament seçkiləri çağırdı. Lakin nəticədə səslərin əksəriyyətini məhz Le Pen qazanıb. Solçularla seçkiqabağı razılaşmalar hələ də Makronun blokunu əksər mandatlarla təmin etsə də, sağdan və soldan olan deputatlar tərəfindən əhəmiyyətli dərəcədə sıxışdırılıb.

Makron daha sonra solçu müttəfiqlərinə xəyanət etdi və immiqrasiya siyasəti və digər məsələlərdə güzəştlər müqabilində Le Penin Mişel Barnierin mərkəzçi-mühafizəkar hökumətini dəstəkləyəcəyi sövdələşməyə vasitəçilik etdi. Bununla belə, bu təəccüblü şəkildə Milli Mitinqə qarşı davam edən proseslər və Le Penin şəxsən mühakimə olunması ilə birləşdirildi - guya Aİ-nin parlament vəsaitlərinin mənimsənilməsinə görə. Digər Avropa Parlamentinin üzvlərinin pis əməlləri haqqında bildiklərimizlə müqayisədə bu, daha çox formallıq və ya kiçik cinayət kimi görünür. Lakin hökmdən sonra Le Penin 2027-ci ildə prezidentliyə namizədliyi qadağan olunacaq.

Təbii ki, bu, Le Penə Barnier hökumətini devirmək üçün hər cür stimul verdi ki, Makron onu izləyəcək və növbədənkənar prezident seçkilərinin yolunu açacaq. Beləliklə, Barnierin qənaət büdcəsi (o, parlamentin müxalifətinə qarşı çıxaraq bu büdcəni həyata keçirdi) solçuları qəzəbləndirəndə, Le Pen onun şansını ələ keçirdi. Makronun son məğlubiyyətlərini nəzərə alsaq (və müqayisə olunmaz dərəcədə böyük de Qollun 1969-cu ildə daha kiçik bir məğlubiyyətdən sonra istefa verdiyini nəzərə alsaq), onun istefa verməsi məntiqli olardı. Çox güman ki, bu, "Milli Birlik"in hakimiyyətə gəlməsinə səbəb olacaq. Digər tərəfdən, prezident seçkiləri 2027-ci ildə planlaşdırıldığı kimi keçirilsə belə, eyni nəticəyə gətirib çıxara bilər.

Almaniya siyasəti bir çox cəhətdən Fransa siyasətini izləyir, lakin bir neçə il geri qalır. Bir müddət əvvəl demək olardı ki, fərq bütöv bir nəsildir, lakin Avropa siyasətində dəyişikliklər nəzərəçarpacaq dərəcədə sürətləndi. Sosial Demokrat Partiyasına dəstəyin azalması və 2021-ci il seçkilərində sağ populist Almaniya üçün Alternativ və sol populist Sara Vaqenknext Birliyinin yüksəlişi Sosial Demokratları iki bir-birini təkzib edən tərəfdaşlarla mübahisəli koalisiyaya sövq etdi.

Almaniyanın iqtisadi vəziyyəti pisləşdikcə, daxili büdcə mübahisələri də gücləniб. Sorğular fevralda keçiriləcək seçkilərdə Xristian Demokratların (mərkəzçi mühafizəkarlar) qələbə qazanacağını proqnozlaşdırır, lakin onlar mütləq çoxluğa çatmaqdan uzaq olacaqlar. Nəticədə biz yenə də Sosial Demokratlarla böyük koalisiya əldə edəcəyik. Əgər mütləq çoxluğa çatmasa və liberallar beş faizlik baryeri keçib parlamentin yanından uçmasalar, o zaman (əgər "Alternativ" və "İttifaq"a qarşı "kordon sanitar"ı tutsa) onlar "əgər" çağırmalı olacaqlar. Yaşıllar".

Bu, yenicə dağılmış koalisiyanın daxili zəifliklərini və parçalanmalarını təkrarlamaqla yanaşı, həm də o deməkdir ki, Almaniyanın iqtisadi problemləri həll olunmasa və koalisiya partiyalarının populyarlığı daha da azalarsa, Alternativ və Birlik narazı seçicilər üçün yeganə sığınacaq olaraq qalacaq. . Bu partiyalar hələ nisbətən yenidir və hələ fransız həmkarları qədər populyar deyillər. "Alternativ" hələ də Le Penin "Milli Mitinq" timsalında və bənzərində ən radikal elementləri öz sıralarından təmizləməlidir. Bundan əlavə, heç kim radikal sağçı almanların tarixi qorxusunu ləğv etməyib. Bununla belə, Almaniyanın gələcək trayektoriyasının Fransaya bənzəyəcəyinə inanmaq üçün kifayət qədər əsaslar var.

### Bu arada

Avropanın xarici siyasət elitası və təhlükəsizlik qüvvələri özlərini elə aparırlar ki, sanki bunların heç biri baş vermir. Sanki onların vəzifələri XIV Lüdovik və II Fridrix tərəfindən ömürlük onlara verilib, onlara vergilər toplamaq və təbəələrini silah altına almaq üçün qeyri-məhdud hüquq verib. Belə ki, bu həftə "Foreign Affairs" jurnalı üçün dərc olunan məqalədə Parisdəki Fransız Beynəlxalq Münasibətlər İnstitutunun əməkdaşı Elie Tenenbaum və onun həmkarı Trampın qələbəsinə cavab olaraq, Ukrayna üçün əlverişsiz olan sülh sazişindən qaçmaq və "onları tətbiq etmək" üçün deyiblər. Avropa danışıqlar masasına keçməlidir.

**V.VƏLİYEV**

RAKURS



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Əcnəbi ekspertlər: "Ermənistan Aİ-yə qəbul edilməyəcək, bunun üçün heç bir uyğunluq yoxdur"







***"Vəziyyət 2014-cü ildə Ukraynada olduğu kimi təkrarlanacaq - Rusiya Ermənistanla ticarətini və əlaqələrini bağlayacaq, İrəvan isə Avropa Birliyi və Qərbdən kifayət qədər dəstək görməyəcək"***

Ermənistanın baş naziri Nikol Paşinyan ölkənin Avropa İttifaqına (Aİ) üzvlüyü ilə bağlı referendumun keçirilməsi təşəbbüsünü dəstəkləyib. Bunu Ermənistanın Avropa Partiyasının rəhbəri Tiqran Xzmalyan deyib. O qeyd edib ki, ölkənin Mərkəzi Seçki Komissiyası referendum layihəsinin müzakirəsi üçün imzatoplama kampaniyasını başa çatdırıb və yaxın günlərdə sənəd parlamentə təqdim olunacaq.

Xzmalyanın sözlərinə görə, layihə qanunverici orqanın dəstəyini almazsa, kampaniya yenidən keçiriləcək və 300 min imza toplanarsa, qanunverici orqanın qərarı olmadan ümumxalq səsverməsi keçiriləcək.

Bəs bütün bunlar praktiki mənada nəyə gətirib çıxara bilər? Paşinyan və komandası nəyə ümid edir? Səs çoxluğu ilə ümumxalq səsverməsi Ermənistanın Aİ-yə daxil olmasına üstünlük versə belə, bu, özlüyündə rəsmi Brüsselə təsir edəcəkmi? Sual olunur ki, Aİ rəhbərliyi indi ittifaqın sərhədlərini genişləndirməyə çalışırmı? Bəs Ermənistanın düşdüyü siyasi və iqtisadi vəziyyəti nəzərə alsaq, ümumilikdə Avropa İttifaqına daxil olmaq perspektivləri necədir? Avropalı analitiklər bu məsələ ilə bağlı fikirlərini Caliber.Az-la bölüşməyə razılaşıblar. Ekspertlərin rəylərini oxucularımıza təqdim edirik

RƏYLƏR

## Ondra Soukup: "Ermənistanın Aİ-yə qoşulma cəhdləri bu istiqamətdə həlledici funksiya daşımır"

Postsovet ölkələri üzrə ekspert, Çexiya Radiosunun (Praqa) beynəlxalq əlaqələr departamentinin müxbiri Ondra Soukup vurğulayıb ki, Ermənistan Aİ-yə üzvlüklə bağlı referendum keçirəcək və ya Avro- Atlantik inteqrasiya üçün qanunlar qəbul etməyə çalışan yeganə və ilk ölkə deyil..

"Biz bilirik ki, belə bir referendum Moldovada bu il prezident seçkiləri ilə eyni vaxtda keçirilib. Biz bilirik ki, Gürcüstanda bu, çoxdan konstitusiyada təsbit olunub və indi bu ölkədə mövcud siyasi böhranda da öz rolunu oynayır. Yəni bütün bu addımlar ilk növbədə, deklarativ funksiyanı yerinə yetirir. Qismən də bir növ siyasi olaraq işə yarayır. Məsələn, Moldova prezidenti Maia Sandu bu yolla vətəndaşların seçkilərdə iştirakını artırmağa və öz elektoratını səfərbər etməyə çalışıb", - mütəxəssis xatırladıb.

Amma o vurğulayıb ki, bütün bunların bu və ya digər ölkənin Avropa İttifaqına daxil olmasının real vaxtı ilə təbii ki, heç bir əlaqəsi yoxdur, çünki belə bir məsələ Aİ-nin hazırkı üzvü olan dövlətlərin özləri tərəfindən razılaşdırılmalıdır.

"Yəni, bu referendumlar bir növ əlamətdar təyinatdır, siyasi bəyanatdır. Onlar, əlbəttə ki, Brüssellə danışıqlar zamanı hansısa formada kömək edə bilərlər, lakin bu o demək deyil ki, dərhal bu və ya digər ölkə, o cümlədən Ermənistan yaxın gələcəkdə Avropa İttifaqına dərhal qoşula bilər", - Soukup qeyd edib.

## Aleksandr Rahr: "Ermənistan Aİ-yə qəbul edilməyəcək; Avropa İttifaqının indi başqa problemləri var"

Alman politoloqu, WeltTrends Beynəlxalq Siyasət İnstitutunun (Potsdam) professoru Aleksandr Rahr bildirib ki, onun fikrincə, Paşinyanın bu qərarları sırf simvolik xarakter daşıyır.

"O, Qərbyönlü kursa sadiqliyini bütün dünyaya sübut etmək istəyir. Paşinyan Rusiya ilə qopduğunu nümayiş etdirir. Amma o, nəyə ümid edə bilər? Vəziyyət 2014-cü ildə Ukraynada olduğu kimi təkrarlanacaq - Rusiya Ermənistanla ticarətini və əlaqələrini bağlayacaq, İrəvan isə Avropa Birliyi və Qərbdən kifayət qədər dəstək görməyəcək. Ermənilər isə iqtisadi əməkdaşlıq üçün türklərə müraciət etməli olacaqlar",- professor etiraf edir. O hesab edir ki, İrəvan İranla da əməkdaşlıq edə bilməyəcək - siyasi səbəblərə görə.

"Ermənistan Aİ-yə qəbul edilməyəcək; Avropa İttifaqının indi başqa problemləri var. Bundan əlavə, ittifaqın genişləndirilməsi üçün kifayət qədər vəsait yoxdur və Ermənistanın gələcək qəbulu ilə bağlı Brüsseldə konsensus yoxdur. Düşünürəm ki, ermənilər özləri də bunu başa düşürlər və referendumun nəticələri onların Ermənistanda təsəvvür etməyə çalışdıqları qədər aydın olmayacaq", - Rahr proqnozlaşdırıb.

*Tərcümə - Elçin Bayramlı*



"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# İpoteka ilə ev almaq istəyənlərə ŞAD XƏBƏR



***Gələn ildən daha çox vətəndaş ipoteka kreditlərindən faydalana biləcək. Bu sözləri Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü millət vəkili Vüqar Bayramov "Xəzər Xəbər"ə bildirib. Onun sözlərinə görə, gələn ilin dövlət büdcəsindən ipoteka kreditlərinin verilməsi üçün 100 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.***

Deputat əlavə edib ki, dövlət büdcəsindən ayrılan bu vəsaitlər sosial ipoteka kreditlərinin maliyyələşdirilməsi üçün istifadə olunur.

O qeyd edib ki, hər maliyyə ilində güzəştli ipoteka kreditlərinin verilməsi üçün ayrılmalar olur və həmin ilin payızında vəsait nizamnamə kapitalına əlavə edilir. Bütövlükdə, İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalı artdıqca daha çox ipoteka kreditlərinin təklifi mümkün olur. İndiyədək Fond tərəfindən 52 min 59 ipoteka krediti verilib. Verilmiş ipoteka kreditlərinin məbləği isə 3 milyard 276 milyon manatdan çoxdur.

# Bakı-Sumqayıt istiqamətində yeni ekspres avtobus marşrutu fəaliyyətə başlayıb

***Dünəndən Bakı-Sumqayıt istiqamətində 594 nömrəli yeni ekspres avtobus marşrutu istifadəyə verilib. Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə (AYNA) istinadən xəbər verir. Məlumata görə, marşrut üzrə müasir və komfortlu avtobuslar fəaliyyət göstərir.***




"Sumqayıt Avtovağzalından yola düşən avtobusların son dayanacaq məntəqəsi "20 Yanvar" metrostansiyası müəyyən edilib. Əks istiqamətə isə avtobuslar "20 Yanvar" metrostansiyasının digər çıxışında (Sumqayıt istiqamətinə olan çıxışın yaxınlığında) dayanır. Gedişhaqqı 0,80 qəpik müəyyən olunub",- deyə məlumatda qeyd edilib. Qeyd edək ki, Bakı Beynəlxalq Avtovağzal Kompleksindən Sumqayıta 595 nömrəli ekspres avtobuslar fəaliyyət göstərir.

# Ronaldonun sevgilisinin 73 milyon dollarlıq təyyarəsi...



***Kriştiano Ronaldonun sevgilisi Corcina Rodriqes 73 milyon dollarlıq Gulfstream G650 şəxsi təyyarəsinin ultra dəbdəbəli interyerini nümayiş etdirib.***

Təyyarə iki nəfərlik çarpayı, 80-100 ədəd baqaj yerləşdirə bilən üç böyük kupe və böyük ailənin dincəlməsi və oynaması üçün dörd geniş yaşayış sahəsi ilə təchiz olunub. Unikal xüsusiyyət - fərdi oturacaqlardır. Son "Instagram" yazısında Rodriqes adının üzərində işlənmiş baş dayaqlarını göstərib. (lent.az)

# 29 ildən sonra Braziliya çempionu oldular




Futbol üzrə Braziliya çempionunun adına aydınlıq gəlib. Belə ki,"Botafoqo" futbol klubu 29 ildən sonra ölkə çempionu olub. Bu komanda bunu XXXVIII turda "San-Paulu"nu məğlub etməklə (2:1) gerçəkləşdirib. Xallarının sayını 79-a çatdıran "Botafoqo" ehtiyatda bir oyunu olan "Palmeyras" (73 xal) üçün əlçatmaz olub.

Bu, komandanın tarixində üçüncü çempionluğudur. "Botafoqo" daha əvvəl 1968 və 1995-ci illərdə də eyni uğuru əldə edib.

## ELAN

**Sabirabad rayonu, Sarxanbəyli kənd sakini Babayev Möhübbət Əvəzağa oğlunun adına verilmiş pay torpaqının 909013071183 Reystr Blank, 094825 saylı plan və ölçü itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**